HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

№ 04 (898) ■ 31 yanvar 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Prezident İlham Əliyev: *«Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçib»*

**Yanvarın 29-da Heydər Əliyev Mərkəzində «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.**

Konfrasda giriş nitqi ilə çıxış edən Prezident İlham Əliyev bildirib ki, bütövlükdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası uğurla gedir. Üçüncü proqram da uğurla icra edilir, qarşımızda duran bütün vəzifələr icra edilir və artıqlaması ilə icra edilir: «Deməliyəm ki, birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Həyat bunu əyani şəkildə göstərir. 2004-cü ilin əvvəllərində qəbul edilmiş proqram demək olar ki, Azərbaycan regionlarında dönüş yaratdı. Azərbaycan regionlarının sürətli inkişafı məhz birinci proqramın icrası ilə bağlı idi.

Mən 2003-cü ildə Prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, Azərbaycan regionlarının problemləri ilə məşğul olacağam. Söz vermişdim ki, Azərbaycan regionlarında sosial-iqtisadi inkişaf sürətlə gedəcək. Son 14 il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi.

Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artdı, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilir. Sabitliyin mənbəyi isə Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir.

Sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir».

Azərbaycan Prezidenti bildirib ki, əsas məqsəd xalqımızın həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində əməli-praktiki addımların atılmasıdır: «Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir. Son 14 il ərzində regional inkişaf proqramlarının icrasının nəticələri də göz qabağındadır».

Dövlətimizin başçısı bəyan edib ki, on dörd il ərzində əldə olunan iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir. Bu illər ərzində iqtisadiyyatımız 3,2 dəfə artmışdır: «Hesab edirəm ki, bu, dünya miqyasında rekord göstəricidir. Qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə artmışdır. Bu, onu göstərir ki, bizim iqtisadi inkişafımız, sadəcə olaraq, neftin, qazın istehsalı ilə bağlı deyil. Bizim iqtisadi inkişafımız çoxşaxəlidir. Ona görə qeyri-neft sektorunun 2,8 dəfə artması aparılan islahatların nəticəsidir. Sənaye sahəsində 2,6 dəfə artım var, kənd təsərrüfatında 1,7 dəfə. Qeyri-neft ixracımız 4,1 dəfə artmışdır.

2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi. Bax, biz böyük regional inkişaf proqramına bu rəqəmlə start verdik. O vaxt mən yaxşı bilirdim ki, bu proqram çox böyük vəsait tələb edəcək. Bizim maliyyə imkanlarımız o qədər də geniş deyildi. Cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarımız var idi. Buna baxmayaraq, biz birinci regional inkişaf proqramına böyük vəsait ayırdıq. Yəni, bu, bir daha göstərir ki, Azərbaycan regionlarının inkişafı, bölgələrdə yaşayan vətəndaşların güzəranı, həyat səviyyəsi bizim üçün həmişə prioritet olub.

Bu gün isə bizim valyuta ehtiyatlarımız 42 milyard dollara bərabərdir. On dörd il ərzində biz valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq. Həm böyük investisiya layihələrinə, infrastruktur layihələrinə, neft-qaz kəmərlərinin tikintisinə vəsait qoymuşuq. Bunlar çox vəsait aparan layihələrdir. Eyni zamanda, öz valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq və adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bizim valyuta ehtiyatlarımız ölkəmizin ümumi daxili məhsuluna bərabərdir. İqtisadçılar yaxşı bilirlər ki, bu göstərici nəyi əks etdirir.

Ona görə bizim böyük valyuta ehtiyatlarımız həm böyük sərvətimizdir, eyni zamanda, bu, bizə iqtisadi müstəqillik verir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyi şərtləndirir. İqtisadi cəhətdən asılı vəziyyətdə olan ölkələr müstəqil siyasət apara bilmirlər, yaxud da ki, aparmaqda çətinlik çəkirlər. Biz isə tam müstəqil siyasət aparırıq, bütün məsələlərlə bağlı bizim öz mövqeyimiz var və bu mövqeyi çəkinmədən ifadə edirik. Biz



bütün prinsipial məsələlərlə bağlı beynəlxalq kürsülərdən səsimizi ucaldırıq, ədaləti və qanunun aliliyini təbliğ edirik və müdafiə edirik.

Keçən il valyuta ehtiyatlarımızın artırılması istiqamətində çox ciddi addımlar atılmışdır. Baxmayaraq ki, keçən il büdcəmiz də bu ilki kimi deyildi, bundan az idi, eyni zamanda, neftin qiyməti də hələ aşağı səviyyədə idi, biz düzgün siyasət, maliyyə sahəsində nizam-intizamı gücləndirmək nəticəsində valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırmışıq. Əminəm ki, bu il valyuta ehtiyatlarımız əhəmiyyətli dərəcədə artacaq.

On dörd il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər arasındadır. Xarici sərmayənin qoyuluşu əlbəttə ki, hər bir ölkə üçün ən vacib amillərdən biridir. Eyni zamanda, bu, onu göstərir ki, ölkəyə inam var, ölkənin siyasətinə dəstək var, ölkənin gələcəyinə ümidlər çox böyükdür. Çünki gələcəyi müəyyən olunmayan, yaxud da ki, qaranlıq olan ölkələrə heç kim, heç bir sahibkar, heç bir dövlət, heç bir şirkət investisiya qoymaz. Ona görə 231 milyard dollara bərabər sərmayə qoyuluşu bizim uğurlu siyasətimizin nəticəsidir. Onu da deməliyəm ki, müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulmuşdur. Bu proses davam edir. Keçən il 14,6 milyard dollar sərmayə qoyulub, bu il ən azı ona bərabər həcmdə sərmayə yatırılacaq.

On dörd il ərzində əhalimiz 1,5 milyon nəfər artıb. Bu, çox gözəl göstəricidir. Bu, onu göstərir ki, əhalimiz artır, ölkəmiz güclənir. Əlbəttə ki, bu artımın ümumi iqtisadi inkişafımızla sıx əlaqəsi var. Hesab edirəm ki, biz bu göstəriciyə görə fəxr edə bilərik. Əlbəttə ki, əhali artımı hər bir ölkə üçün önəmli amildir. Eyni zamanda, bu, bizi daha da fəal işləməyə sövq etməlidir. Çünki artan əhali, eyni zamanda, bizdən buna adekvat iqtisadi inkişaf tələb edir. Biz 14 il ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaratmışıq ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Ancaq əhali 1,5 milyon nəfər artıb. Bəli, bu vətəndaşlar hələ ki, yeniyetmə və uşaqdırlar, ancaq bir neçə ildən sonra onlar işlə təmin olunmalıdırlar.

Ona görə iş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. İndi dünyada texnoloji inkişafın çox sürətlə getdiyini və bunun iş yerlərinin ixtisarına gətirib çıxardığını nəzərə alsaq, biz bu sahəyə çox böyük diqqət verməliyik ki, Azərbaycanda işsizlik daim aşağı səviyyədə olsun. Necə ki, görülən işlər nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Biz birinci proqramın icrasına başlayanda yoxsulluğun səviyyəsi 50 faiz idi, indi isə 5,4 faizdir.

Bax, budur, bizim əsas iqtisadi göstəricilərimiz. Eyni zamanda, sosial sahəyə çox böyük diqqət göstərilmişdir. Maaşlar 14 il ərzində beş dəfədən çox, pensiyalar səkkiz dəfədən çox artıb və bir çox önəmli sosial layihələr icra edilib».

**Davamı 2-ci səhifədə**

## Bütün fəsillər üçün ən müasir turizm kompleksi

**Prezident İlham Əliyev yanvarın 30-da Qusarda «Şahdağ» qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub. Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov dövlətimizin başçısına kompleksin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat verib.**



Qeyd edilib ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaq. Bildirilib ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada «Boulinq», tennis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcək.

Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq. Turistlər bu göldə həm üzəcək, həm də qayıqlarla səyahət edəcəklər. Qış mövsümündə isə bu göldən qaryaratma üçün ehtiyat mənbəyi kimi istifadə olunacaq. İkinci mərhələdə görülməsi planlaşdırılan işlərə bu ilin yaz aylarından başlanılacaq. Bunun üçün indidən hazırlıq işləri görülür. Kompleksin üçüncü mərhələsi ilə bağlı layihələndirmə işləri aparılır.

Dövlətimizin başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verilib. Bildirilib ki, kompleksin ərazisindən keçən Qusar-Ləzə yolu onun kənarından inşa olunacaq. Bu da imkan verəcək ki, yuxarı kəndlərin sakinləri kompleksin ərazisinə daxil olmadan hərəkət edə bilsinlər. Hazırda bu yolun yarısının torpaq yatağı hazırlanıb. Qalan işlərin ilin sonuna qədər tamamlanması nəzərdə tutulur. Yeni yoldan kompleks ərazisinə iki giriş nəzərdə tutulub. Ərazidə böyük avtomobil dayanacağının da istifadəyə verilməsi planlaşdırılır.

Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verib, sonra isə «Şahdağ» qış-yay turizm kompleksində xizək sürüb.

## Rəsmi xronika

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Henrik Hololey Azərbaycanda nəqliyyat infrastrukturunun yaradılması, o cümlədən yeni dəniz limanının inşası, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, ölkədə müasir aviasiya şəbəkəsinin tam şəkildə inkişaf etdirilməsi istiqamətində əldə edilən nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edib. Görüşdə Azərbaycanın aparıcı beynəlxalq nəqliyyat dəhlizlərindən biri kimi önəmi vurğulanıb, ölkəmizin nəqliyyat qovşağı sahəsində mühüm rolu qeyd olunub, Avropa İttifaqının bu işlərə strateji əhəmiyyət verdiyi bildirilib.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat sahəsində mütəmadi dialoqun yaradılmasının zəruriliyi vurğulanıb və nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

■ Prezident İlham Əliyev yanvarın 26-da Ekvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri German Alexandro Orteqa Almeydanın etimadnaməsini qəbul edib.

Dövlətimizin səfirlə söhbəti zamanı Azərbaycan ilə Ekvador arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu bildirilib, ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Qeyd edilib ki, iqtisadi əlaqələrin müxtəlif sahələrdə, xüsusən idxal-ixrac sahəsində inkişaf etdirilməsi üçün yaxşı imkanlar var.

■ Həmin gün dövlətimizin başçısı Çili Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xose Manuel Silvanın da etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev səfirlə söhbət zamanı ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin önəmini vurğulayaraq, bununla bağlı Azərbaycan ilə Çilinin bir-biri haqqında daha çox məlumata malik olmasının zəruriliyini qeyd edib. Bildirib ki, ölkələrimizin biznes icmaları arasında əməkdaşlıq, rəsmi səviyyədə qarşılıqlı səfərlər, beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın həyata keçirilməsi, eyni zamanda mədəni tədbirlər, müxtəlif təqdimatlar və sərgilərin təşkil olunması, xalqlar arasında münasibətlər yaxın tərəfdaşlıq əlaqələrinin qurulmasına kömək edə bilər. Dövlətimizin başçısı vurğulayıb ki, bütün bunlar, öz növbəsində, iqtisadi əlaqələrin qurulması işinə təkan verər. Bu işdə ticarət və investisiya imkanlarının müəyyənləşdirilməsi də mühüm rol oynaya bilər.

Səfir Xose Manuel Silva ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Çili Respublikasının Prezidenti Sebastian Pinyeranın tapşırığı əsasında iki ölkə arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd edib.

Əlverişli biznes mühiti regionlarda iqtisadi aktivliyi artırıb — səh. 2

İnkişaf istiqamətlərinin yolları və hədəfləri — səh. 3

Azərbaycan «İnklüziv İnkişaf İndeksi 2018» hesabatında irəliləyib — səh. 3

Azərbaycanda qeyri-neft sektoru yeni inkişaf mərhələsində — səh. 4

# Prezident İlham Əliyev: *«Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçib»*



**Əvvəli 1-ci səhifədə**

Prezident İlham Əliyev bildirib ki, son illər ərzində Azərbaycanda ictimai xidmətlər sahəsində böyük irəliləyiş olub: «ASAN xidmət» mərkəzlərinin yaradılması bu sahədə inqilabi dönüş etdi. Son beş il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilmişdir və «ASAN xidmət» mərkəzlərini bəyənmə əmsalı 100 faizə yaxındır. Rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə, o cümlədən sistem xarakterli tədbirlər sahəsində aparılır. Deyə bilərəm ki, institusional tədbirlər ən səmərəli tədbirlərdir. Əlbəttə ki, cəza tədbirləri də tətbiq olunub, olunur, onların da əhəmiyyəti var. Ancaq institusional tədbirlər, rüşvətxorluq, korrupsiya üçün, necə deyərlər, meydançanın daralması istiqamətində atılan addımlar ən səmərəli addımlardır».

Ölkəmizdə həyata keçirilən nəhəng nəqliyyat və energetika layihələrinə toxunan dövlət başçısı bütün bunların böyük vəsait tələb etməsi ilə yanaşı, eyni zamanda, Azərbaycanın uzunmüddətli uğurlu inkişafını şərtləndirən layihələr olduğunu bildirib: «Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi tarixi hadisədir. Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətdir. Bu dəmir yolu, - bu barədə çox danışılıb, ictimaiyyət də əhəmiyyətini bilir, - həqiqətən bölgədə, Avrasiyada nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində bəlkə də son illərdə ən önəmli layihədir. Bunun bizim üçün də çox böyük əhəmiyyəti var. Artıq bir-iki aydır ki, Asiyadan, Avropadan müxtəlif istiqamətlərə gedən yüklər gəlib Azərbaycan ərazisindən keçir.

Biz Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı öz ərazimizdə olan bütün məsələləri qısa müddət ərzində həll etdik. Beləliklə, beynəlxalq əməkdaşlığa gözəl şərait yaratmışıq. Dəmir yolunun yenidən qurulması istiqamətində işlər görülüb, görüləcək...

Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin tikintisi iqtisadiyyata böyük valyuta axınını təmin edir. Bu kəmərlər olmasaydı, biz neft-qaz resurslarını haraya ixrac edəcəkdik? Bakı-Tbilisi-Ceyhanı əngəlləmək üçün antiazərbaycan qüvvələr nə qədər səy göstərdilər, alınmadı. Biz möhkəm dayanmışdıq, güclü iradə göstərmişdik və bu layihələri qonşu dövlətlərlə birlikdə icra etdik. Bakı-Tbilisi-Ceyhan on ildən çoxdur ki, fəaliyyət göstərir. On ildən çoxdur ki, qaz kəmərimiz qazımızı Ərzuruma qədər nəql edir. Əgər bu layihələr olmasaydı, Bakı-Tbilisi-Qars da olmazdı. Əgər bu, olmasaydı, «Şahdəniz-2» də olmazdı. Cənub Qaz Dəhlizi - dəyəri 40 milyard dollardan çox olan layihə də olmazdı. Onda bizim həyatımız necə olacaqdı? Bizim iqtisadi vəziyyətimiz necə olacaqdı. Təsəvvür etmək o qədər də çətin deyil.

Ona görə bütün bu layihələr xalq qarşısında tarixi xidmətlərdir. Biz fəxr edirik ki, bunları icra etmişik. Bu layihələr, eyni zamanda, uzunmüddətli inkişafımıza şərait yaradır. Biz indi 42 milyard dollar valyuta ehtiyatlarımıza malikik. Bunları nəyin hesabına qazanmışıq? Enerji resurslarının ixracı nəticəsində. Bakı-Tbilisi-Ceyhan tikilməsəydi, bu da olmayacaqdı.

Bu 14 il ərzində görülmüş işlərin hamısını bir çıxışda sadalamaq mümkün deyil. Bəlkə də günlər lazımdır ki, biz bütün işləri qeyd edək. Sadəcə olaraq, mən bu gün əsas məqamları ictimaiyyətin diqqətinə çatdırdım. Görülən bütün işlər və əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq.

Sonra Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Naxçıvan Muxtar Respublikasındakı «Nəqşicahan Holdinq» şirkətlər qrupunun «Duzdağ» Müalicəvi İstirahət Mərkəzinin direktoru Novruz Novruzov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Neftçala Sənaye Məhəlləsinin direktoru Nəriman Xəlilov, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Ağdam rayonundakı Heyvandarlıq Kompleksinin direktoru Fuad Əyyubzadə, Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Saatlı rayonundakı «Aqro-Az» Məhdud Məsuliyyətli Cəmiyyətinin (pambıq istehsalı və emalı) rəhbəri Vahid Hüseynov və Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev hesabat xarakterli çıxış ediblər.

Konfransda yekun nitqi söyləyən Prezident İlham Əliyev bu ilin sonuna qədər yerinə yetirilməli əsas işlər barədə fikirlərini diqqətə çatdırıb. Qeyd edib ki, qazlaşdırma bu ilin sonuna qədər 95 faizə çatdırılmalıdır. «Dövlət büdcəsində bu məqsədlər üçün Azərbaycan Dövlət Neft Şirkətinə 100 milyon manata yaxın vəsait nəzərdə tutulur. Bundan başqa, bu il yeni böyük elektrik stansiyası istifadəyə verilməlidir. Artıq bir neçə ildir ki, inşa edilən «Şimal-2» elektrik stansiyasının açılışı bu il nəzərdə tutulur. İçməli su və kanalizasiya layihələri ilə bağlı işlər davam etdiriləcək. 2018-ci ildə 2300 kilometr avtomobil yolları - həm magistral, şəhərlərarası, eyni zamanda, kənd yolları çəkiləcək. Sumqayıt şəhərindən Rusiya sərhədinə qədər yeni yolun çəkilişi də nəzərdə tutulub.

Sosial obyektlərin tikintisi ilə bağlı geniş tədbirlər planlaşdırılır. Altı şəhərdə - Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan və Goranboy şəhərlərində yeni rayon mərkəzi xəstəxanalarının tikintisi başa çatmalıdır. Eyni zamanda, Füzuli rayonunda və Qəbələ şəhərində rayon mərkəzi xəstəxanalarının tikintisi aparılacaqdır ki, bu xəstəxanalar 2019-cu ildə istifadəyə verilsin. Bu il 137 modul tipli məktəb tikiləcək. Kəndlərdə 100-dən çox məktəb qazlaşdırılacaq, yüzlərlə məktəbdə təmir işləri aparılacaq. Bakı şəhərində isə 12 məktəb əsaslı təmir ediləcək Dörd şəhərdə Olimpiya İdman mərkəzləri tikilməlidir. Onlardan ikisi bu il, ikisi isə gələn il istifadəyə veriləcəkdir. Məcburi köçkünlər üçün yeni binaların, evlərin tikintisi davam etdiriləcək. Bu il 4 min ailəyə - ən azı 20 min köçkünə yeni evlər veriləcək. Beləliklə, evlərlə, mənzillərlə, yaxşı şəraitlə təmin ediləcək köçkünlərin sayı təqribən 290 minə yaxın olacaqdır. Ancaq bu, minimum proqramdır, əgər il ərzində imkan olarsa, biz bu say artırılacaq».



Dövlətimizin başçısı bu il yeni iş yerlərinin yaradılması ilə bağlı da fikirlərini bildirib. Qeyd edib ki, bu, daimi proses olmalıdır. Əhalinin artımı daim yeni iş yerlərinin yaradılmasını tələb edir. Böyük tikinti və infrastruktur layihələri, sənaye obyektlərinin işə düşməsi, əlbəttə ki, iş yerlərinin açılmasına şərait yaradır: «Hesab edirəm ki, böyük biznes şirkətləri bu sahədə daha fəal olmalıdırlar. Mən həm dövlət, həm özəl şirkətlərə müraciət edərək onları bu işlərə dəvət etmək istəyirəm. Ümumiyyətlə, mən biznesin sosial məsuliyyəti məsələləri ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Dövlət iş adamlarına bu qədər şərait yaradır, həm siyasi dəstək, həm də maliyyə dəstəyi göstərir, iki milyard manatdan çox güzəştli kreditlər verilib. Fermerlərə bu qədər güzəştlər edilir, yanacaq, gübrə, subsidiyalar, texnika dövlət tərəfindən verilir. Fermerlər vergilərdən azaddırlar, təkcə torpaq vergisindən başqa. Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması, islahatların aparılması istiqamətində bu qədər işlər görülür və beynəlxalq qurumlar da bunu qeyd edirlər. Bunun müqabilində iri biznes qurumları gərək öz sosial məsuliyyətini dərk etsinlər. Sosial məsuliyyət təkcə hansısa xeyriyyəçiliklə məşğul olmaq deyil. Sosial məsuliyyət, eyni zamanda, kiçik biznesə, ailə biznesinə dəstək göstərməkdir. Ona görə mən Prezident Administrasiyasına, müvafiq nazirliklərə, İqtisadiyyat Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə, digər aidiyyəti qurumlara tapşırıram ki, bu məsələ ilə bağlı təkliflər hazırlasınlar». Ərzaq təhlükəsizliyi məsələlərinin daim diqqət mərkəzində olduğunu bildirən ölkə başçısı son illərdə bu istiqamətdə irəliləyiş əldə edilsə də bu məsələyə xüsusi diqqət göstərilməsinin vacibliyini vurğulayıb, kənd təsərrüfatının bütün sahələrinə dövlət dəstəyinin daha da artırılacağını qeyd edib.

Çıxışının sonunda Prezident İlham Əliyev bütövlükdə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı heç bir problemin olmadığını diqqətə çatdırıb: «Maliyyə vəziyyətimiz çox sabitdir, müsbətdir. Beynəlxalq qurumlar Azərbaycandakı islahatları yüksək qiymətləndirirlər. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri bizdə aparılan islahatları yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 35-ci yerə layiq görüb. Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə birinci olmaq çox böyük nəticədir. İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında üçüncü yerdədir. Bu siyahıda cəmi 80-ə yaxın ölkə var. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında bu göstəriciyə görə də birinci yerdəyik. Ermənistana gəldikdə isə o, 45-ci yerdədir və buna görə də çox sevinir, toy-bayram edir. Biz isə üçüncü yerdəyik və bizdən qabaq ancaq inkişaf etmiş ölkələrdir, onların da sayı 30-dur. İnkişaf etmiş ölkələrin reytinqinə 30 ölkə daxil edilib və 80-ə yaxın ölkə inkişafda olan ölkədir. İnkişafda olan ölkələr arasında biz üçüncü yerdəyik. Deməli, dünya miqyasında inklüziv inkişaf indeksinə görə biz 33-cü yerdəyik. Rəqabətqabiliyyətliliyə görə isə 35-ci yerdəyik.

Bu rəqəmlər hər şeyi əyani şəkildə göstərir. Biz düzgün yoldayıq, düzgün siyasət aparırıq. Siyasətimiz xalqımızın maraqlarını təmin edir, dövlətimizi gücləndirir.

# Əlverişli biznes mühiti regionlarda iqtisadi aktivliyi artırıb

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirib ki, regionların inkişafı daim diqqət mərkəzində olub, ölkədə yürüdülən siyasətə uyğun olaraq, dövlət tərəfindən bölgələrdə qeyri-neft sahələrinin inkişafına xüsusi diqqət yetirilir və qarşıdakı dövrdə bu siyasət davam etdiriləcək.

***Vergi yükünün aşağı salınması sahibkarlığı stimullaşdırıb***

İqtisadçı Ramin Osmanlı hesab edir ki, regionlarda sahibkarlıq subyektlərinin sayının artmasına son illərdə biznes mühitinin və qeydiyyat sisteminin sadələşdirilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı inzibatçılığın təkmilləşdirilməsi və digər tədbirlər öz təsirini göstərib. Vergi yükünün aşağı salınması bölgələrdə biznesin səmərəliliyinin artmasına, yeni sahibkarlıq fəaliyyəti növlərinin yaranmasına səbəb olub: «Regionlarda yeni vergitutma mənbələrinin yaranması, iqtisadiyyatın indiyədək vergitutma bazasına cəlb edilməmiş ayrı-ayrı sahələrindən vergilərin hesablanması, vergi potensialının və vergi ödəyicilərinin sayının əhəmiyyətli dərəcədə artması bölgələrdən daxil olan vergilərin həcminin əhəmiyyətli dərəcədə yüksəlməsinə təkan verib. 2017-ci ildə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin böyük bir qismi sahibkarların vergi yükünün aşağı düşməsi, ölkədə daha əlverişli və səmərəli biznes mühitinin təmin edilməsi, yeni istehsal və xidmət sahələri yaradılması üçün stimul verir».







***Vergi ödəyicilərinin sayı artıb***

Vergilər Nazirliyinin Ərazi vergi orqanları ilə iş üzrə departamentinin əməkdaşı Zehralı Talıbovun sözlərinə görə, regionlarda həyata keçirilən layihələr beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına şərait yaradır: «Ötən ilin əvvəllərindən sahibkarlıq sahəsində aparılan yeni islahatlar və qanunvericiliyə edilən dəyişikliklər ölkəmizdə əlverişli biznes mühitinin təmin olunması fonunda sahibkarlığa başlayan şəxslərin sayının artmasına imkan verib».

Z.Talıbovun bildirdiyinə görə, ötən il ərazi vergi orqanlarında qeydiyyata alınmış 100 mindən çox vergi ödəyicisinin 4686-sı hüquqi şəxslərdir. Qeydiyyata alınmış və fəaliyyəti bərpa olunmuş obyektlərin sayı (təsərrüfat subyektlərinin) fəaliyyətini dayandırmış və ləğv edilmiş obyektlərin sayından xeyli çoxdur: bunların arasındakı fərq 9484-dür. Əvvəlki dövrdə fəaliyyətini dayandırmış müəssisələrin yenidən fəaliyyətə başlaması, yeni yaradılan sahibkarlıq subyektlərinin sayının əhəmiyyətli dərəcədə artması vergi ödəyiciləri üçün yaradılmış əlverişli şəraitin göstəricisi sayıla bilər.

Onu da qeyd etmək lazımdır ki, ötən il regionlarda çalışan vergi ödəyicilərinin ümumi dövriyyəsi 2016-cı il ilə müqayisədə 28,7% artıb.Ticarət üzrə ümumi dövriyyə 29,8%, xidmət sahəsi üzrə isə 35,8% çoxalıb. 2017-ci ildə 38.165 vergi ödəyicisi fəaliyyətini bərpa edib ki, bu da bölgələrdə iqtisadi aktivliyin xeyli artdığını göstərir.

***Son 10 ildə regionlar üzrə vergi daxilolmaları***

Zehralı Talıbovun sözlərinə görə, regionlarda infrastrukturun inkişafı, yeni iş yerlərinin açılması, ixrac potensialının genişləndirilməsi nəticəsində paytaxtdan kənar ərazilərdə digər fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicilərinin də iqtisadi aktivliyini artırıb. Nəzərə alınmalıdır ki, bu artım, torpaq vergisi istisna olmaqla, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vergi ödəyicilərinin bütün vergilərdən azad edilməsi şəraitində baş verir. Regionlarda yaşayan əhalinin böyük hissəsinin kənd təsərrüfatı ilə məşğul olmasına və bu sahəyə vergi güzəştləri tətbiq edilməsinə baxmayaraq, bölgələr üzrə vergi daxilolmaları ilbəil artıb: «Regionlarda iqtisadi fəallığın və nəticədə ərazilər üzrə daxil olan vergilərin də həcminin artması müşahidə edilir. 2017-ci ildə bölgələr üzrə müəyyən edilmiş 598,9 milyon manat proqnoz tapşırığına qarşı dövlət büdcəsinə 626,3 milyon manat vəsait daxil olub, proqnoza 104,6% əməl edilib. Regionların sosial-iqtisadi inkişafının təmin olunması və Dövlət proqramlarının uğurlu icrası nəticəsində son 10 il ərzində ərazi vergi orqanları üzrə vergi daxilolmaları 7 dəfə artaraq 86,6 milyon manatdan 626,3 milyon manata çatıb. Nəzərə alsaq ki, regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinin əksəriyyəti kənd təsərrüfatında məşğuldur və bu sahə 1999-cu ildən bəri bütün növ vergilərdən azad edilib, bu, bir daha regionlardakı iqtisadi canlanmanı nümayiş etdirir».

***Xarici sərmayələr üçün əlverişli şərait mövcuddur***

Ölkədəki investisiya mühiti xarici sərmayəçilərin fəallığının yüksəlməsinə və nəticədə sayının artmasına səbəb olub. Respublikamızda investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır. Son illərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərir. 2017-ci ildə ölkə iqtisadiyyatına qoyulmuş 14 milyard manat sərmayənin təxminən yarısı xarici investisiyaların payına düşür.

Ötən il Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlərdir. Ümumilikdə, son 13 ildə ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mini ötüb. Həmin şirkətlərin daha çox maraq göstərdikləri sahələr sənaye, tikinti, nəqliyyat, ticarət, turizm və xidmət sektorlarıdır.

Xarici şirkətlərin 32,1%-i qardaş Türkiyəyə məxsusdur. Rusiya, Böyük Britaniya, ABŞ və Fransaya məxsus investisiyalı müəssisələrin sayı da az deyil. Cənubi Koreya, Yaponiya, İran, Belarus, Litva, Latviya, İtaliya və digər ölkələrin şirkətlərinin sayında son vaxtlar artım qeydə alınmaqdadır. Həmin şirkətlər Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə, qeyri-neft sənayesində podratçı, subpodratçı qismində də fəal iştirak edirlər.

**Elbrus CƏFƏRLİ**

# İnkişaf istiqamətlərinin yolları və hədəfləri



**Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafında əvəzolunmaz payı olan prioritet sahələrin son vəziyyəti ilə bağlı suallarımızı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vahid Əhmədov cavablandırır.**

**- Vahid müəllim, yenicə yola saldığımız 2017-ci il iqtisadiyyatımız üçün hansı göstəricilərlə əlamətdar oldu?**

- 2017-ci il Azərbaycanda islahatların başlanğıcı ili kimi qiymətləndirilməlidir. Dünya iqtisadiyyatında böhranların artması və əhatəsinin genişlənməsi, geosiyasi risklərin yüksəlməsi əmtəə və fond bazarlarındakı qeyri-sabitlik ilə müşayiət olunur. Region ölkələrində müşahidə edilən iqtisadi problemlər əksər ölkələrin iqtisadiyyatına bu və ya digər dərəcədə mənfi təsir göstərir. Dünya enerji bazarındakı qeyri-sabitlik, əsas ticarət tərəfdaşlarının milli valyutalarının devalvasiyası Azərbaycan iqtisadiyyatı üçün də əlavə risklər yaratmışdı. Antiböhran tədbirləri çərçivəsində Prezident İlham Əliyev tərəfindən imzalanmış «Milli iqtisadiyyatın perspektivi üzrə Strateji Yol Xəritəsi» qısa, orta və uzunmüddətli olmaqla, 2020-ci, 2025-ci ilədək və 2025-ci ildən sonrakı dövrləri əhatə edir. Ayrı-ayrı dövrlər üzrə görüləcək işlərə sabitləşdirilmə, şaxələndirilmə və dünya iqtisadiyyatına inteqrasiya edərək rəqabət qabiliyyətinin artırılması ilə yaranmış vəziyyətdən çıxmaq, iş yerləri yaratmaq, mənzil təminatı, təhsil və səhiyyə xidmətləri, kommunal xidmətlər və ünvanlı sosial yardım sistemindən reabilitasiyaya keçid yolu ilə yoxsulluğu azaltmaq səyləri daxildir.

2017-ci ildə bu strategiyanın icrasına start verildi və bir sıra sahələrdə olduğu kimi, yeni iqtisadi model quruculuğu sahəsində də islahatlar davam etdirilərək infrastruktur yaxşılaşdırıldı. İxrac idxalı üstələdi, Azərbaycanın ticarət balansında 6 milyard dollara yaxın müsbət saldo yarandı. Bu, çox əhəmiyyətli rəqəmdir. Ölkədə ÜDM-in əhəmiyyətli şəkildə azalması yalnız 2016-cı ildə qeydə alınıb, 2017-ci ildə ÜDM-in artım dinamikası tarazlaşdırılıb və 2018-ci ildə yeni iqtisadi yüksəliş üçün əsaslar yaradılıb.

Ötən il bizi ən çox narahat edən sahələrdən biri bank sisteminin sağlamlaşdırılması idi. Bu sahə iqtisadiyyat üçün çox əhəmiyyətlidir. Azərbaycan dövləti artıq öz üzərinə götürdüyü məsuliyyət çərçivəsində elektrik enerjisi, su və qazla bağlı problemləri həll edib. İndi diqqət əhali-bank-sahibkar arasında əlaqə yaratmağa yönəldilib və bu istiqamətdə müəyyən islahatlar aparılır.

2017-ci ildə Azərbaycanda böyük layihələr həyata keçirildi. Avrasiya məkanının yeni yüksəliş layihəsi - bizim üçün çox əhəmiyyətli olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildi. Ələtdə dəniz ticarət limanının tikintisi gedir ki, bu iqtisadi zonanın yaradılması Azərbaycanın nəqliyyat dəhlizi kimi önəmli mövqeyini ortaya qoyur. Qazaxıstan, Türkiyə, Türkmənistan və bir sıra digər dövlətlər bu dəhlizə qoşulmağa maraqlıdırlar.

Digər bir uğurlu işimiz - TANAP, TAP layihələri Azərbaycanı dünyaya qaz ixrac edən əhəmiyyətli bir ölkə kimi təqdim edir. Həmin qaz kəmərinin tikintisinin müəyyən hissəsi 2018-ci ildə başa çatdırılaraq istifadəyə verilməlidir. Bu da Azərbaycan qazının Avropaya Gürcüstan və Türkiyə vasitəsilə çıxarılması deməkdir.

«Əsrin müqaviləsi»nin 2050-ci ilə qədər uzadılmasını nəzərdə tutan sazişin imzalanması, Astara-Rəşt dəmir yolu xəttinin birləşdirilməsi istiqamətində atılan addımlar da investisiya qoyuluşu və infrastrukturun yaxşılaşdırılması baxımından əhəmiyyətli rol oynadı.

Beləliklə, ölkə iqtisadiyyatının inkişaf perspektivləri genişdir. Strateji Yol Xəritəsində həyata keçirilməsi nəzərdə tutulan sahələr üzrə qarşıya qoyulan vəzifələrin icrası Azərbaycana xeyli dividentlər gətirəcək.

**- Ölkədə aparılan son vergi islahatları özünü necə doğruldur, nə kimi təklifləriniz var?**

- 2016-cı ilin sonlarına doğru vergilərin optimallaşdırılması, sahibkarlığın stimullaşdırılması üçün çox ciddi qanun dəyişiklikləri qəbul edildi. 2018-ci il yeni başlayıb, düşünürəm ki, bu gün də vergi sistemi islahatlara ehtiyac duyur. Hər şeydən əvvəl qanunvericiliyin bütün tələbləri təmin edilməli, vergi sistemi tam şəffaf olmalıdır, korrupsiyaya, digər qaranlıq əməllərə yol verilməməlidir. Konkret hansı dəyişikliklərə ehtiyac yaranarsa, Milli Məclis bunun həyata keçirilməsinə imkan yaradacaq.

**- Vergi sistemində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı islahatlar davam etdirilir. Bu sahədə hansı zəruri dəyişikliklərin edilməsini məqsədəuyğun hesab edirsiniz?**

- 2017-ci ildən qüvvəyə minmiş Vergi Məcəlləsinə dəyişikliklərin əsas məqsədi kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, vergi yükünün optimallaşdırılması, vergi ödəyicilərinin hüquqlarının qorunması, onların vaxt itkisinə məruz qalmaması və vergi öhdəliklərinin daha rahat şəkildə yerinə yetirilməsi, bir sıra vergi ödəyiciləri üçün güzəştlərin müəyyən edilməsi yolu ilə sosial bərabərliyin təmin olunması, nağdsız əməliyyatların həcminin artırılmasından ibarətdir. Buraya, həmçinin, vergitutma bazasının genişləndirilməsi, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, uçotun dürüstlüyünün və şəffaflığının təmin olunması da daxildir.

Bizim ƏDV haqqında təkliflərimiz var. Nəyə görə bütün məhsullara 18%-lə ƏDV tətbiq olunmalıdır? Mebel, maşın, qızıl məmulatları kimi prestij sayılan məhsullar, habelə ərzaq və gündəlik tələbat məhsullarına da 18%-lik ƏDV qoyulur. Bu baxımdan, mən ƏDV-nin diferensiallaşdırılmasını təklif edirəm. Digər tərəfdən, ümumiyyətlə, vahid vergi sistemini müəyyənləşdirmək lazımdır. Vergilərin sahəsi çox böyükdür, bir neçə vergi sistemindən istifadə edirik. Məsələn, qonşu Gürcüstanda vergi sistemində güclü təkmilləşdirmə aparılıb. İnsanların müxtəlif yerlərə deyil, bir yerə vergi ödəmə tələbatına baxılmalıdır. O yerdən də vergi problemli sahələrə paylanılmalıdır. Göründüyü kimi, vergi sistemində, Vergilər Nazirliyinin özündə belə kadr, struktur və institusional dəyişikliklərlə bağlı islahatlara ehtiyac var...

**- 2018-ci il yanvarın 1-dən bütün vergi ödəyiciləri üçün elektron qaimə-fakturanın tətbiqinə başlanılıb...**

- Prezident İlham Əliyevin imzaladığı 4 avqust 2016-cı il tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə» sərəncamında nəzərdə tutulan mühüm məsələlərdən biri də elektron qaimə-faktura sisteminin tətbiqidir. Yeni sistem Vergi Məcəlləsində sahibkarlar arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə, yəni onların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunmasına dair öhdəliklər müəyyənləşdirir.

Sirr deyil ki, bəzi sahibkarlar apardıqları əməliyyatları gizlətmək istəyirlər. Bunun qarşısının alınmasında ən yaxşı metodlardan biri e-qaimənin tətbiqidir. Beynəlxalq təcrübə göstərir ki, qaimə-fakturaların kağız formasında verilməsi mal, iş və xidmətlər üzrə nəzarətin lazımi səviyyədə təşkil olunmamasına və nəticədə vergidən yayınma hallarına şərait yaradır. E-qaimə vasitəsilə, ƏDV-də olduğu kimi, digər vergi növləri üzrə də malların satışı sikli tam şəkildə elektron qaydada nizamlanacaq, proses vergi orqanları tərəfindən izlənəcək. Bu, çox müsbət haldır.

**- Sahibkarlığın inkişafı məqsədilə vergi siyasətinin tənzimlənməsində hansı dəyişiklikləri aktual hesab edirsiniz?**

- Bu gün Azərbaycanda bütün proseslər sahibkarlığın inkişafına yönəldilib. Kiçik və orta sahibkarlıq inkişaf etmədikcə, vergi sistemində də problemlər qaçılmaz olacaq. Vergiləri optimallaşdırmaq, bununla da sahibkarları könüllü vergiyə cəlb etmək lazımdır. Vergi ödənişlərini artırmaqdan ötrü sahibkara öz iş həcmini genişləndirməsi üçün şərait yaratmaq lazımdır. Əgər bu gün sahibkar 1 milyard manatlıq mal istehsal edirsə, elə etmək lazımdır ki, gələn il 2 milyard manatlıqdan artıq istehsal etsin və nəticədə əlavə vergi ödənişi əmələ gəlsin. Bu sahədə diqqət yönəldilməli məsələlər çoxdur. Sahibkarların özlərinin də müəyyən təklifləri var. Millət vəkilləri, eləcə də Vergilər Nazirliyinin nümayəndələri mütəmadi olaraq vergi ödəyiciləri ilə görüşlər təşkil edir, onları narahat edən məsələləri dinləyir və ortaya çıxan problemlərin həllində yardımçı olmağa çalışırlar.

Sahibkarlığın inkişafı üçün vacib məsələlərdən biri də iş adamlarının sərbəst pul mənbələrinə çıxış imkanlarının genişləndirilməsidir. Vergi yükünün azaldılması, sahibkarlar üçün kredit şərtlərinin yumşaldılması, faiz dərəcələrinin ədalətliliyinin təmin edilməsi sahəsində islahatlar davam etdirilməlidir. Prioritet sahələri, xüsusən də regionlarda ən vacib istehsal sahələrini inkişaf etdirmək üçün əlverişli şərtlərlə kreditlər verilməli, vergi güzəştləri, vergi tətilləri tətbiq olunmalıdır.

Əlavə vergi faizlərinin yaranması, şəffaflıq, sənədləşdirmə ilə bağlı sahibkarlardan daxil olan müraciət və şikayətlər yetərincədir. Bir çox iri ticarət mərkəzləri var ki, onlara gətirilən malların sənədi olmur, nəticədə sahibkarlar həmin malların qəbulunda əziyyət çəkirlər. Vergi orqanları ödəyicilərlə bu barədə ortaq məxrəcə gələrək müəyyən qərarlar qəbul etməlidirlər.

> **“Vergi yükünün azaldılması, sahibkarlar üçün kredit şərtlərinin yumşaldılması, faiz dərəcələrinin ədalətliliyinin təmin edilməsi sahəsində islahatlar davam etdirilməlidir**

**- Biznes mühitinin daha da liberallaşdırılması üçün hansı sahələrdə islahatların aparılması gözlənilir?**

- 2017-ci ildə biznes mühitinin əlverişliliyini artırmaq üçün iqtisadi islahatlar davam etdirilib. «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Azərbaycan Respublikası Qanununa əsasən, 2015-ci il noyabrın 1-dən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılmışdı, 2017-ci ilin oktyabr ayında isə bu müddət 2021-ci ilə kimi uzadıldı. Dövlət Gömrük Komitəsi tərəfindən «Yaşıl dəhliz» və digər buraxılış sistemlərinin tətbiqi ilə əlaqədar müvafiq infrastruktur yaradılıb. İxracatçılar 2016-cı il avqustun 1-dən «Yaşıl dəhliz» və digər buraxılış sistemlərindən istifadə etmək imkanı qazanıblar. «Tax free» sisteminin tətbiqi, bəzi məhsulların idxal rüsumlarının artırılması, idxal edilən xammallarda rüsumların azaldılması da mühüm islahat tədbirlərindəndir.

Əgər biz biznes mühitini rahatlaşdırmaq istəyiriksə, vergi və gömrük sistemində islahatların davam etdirilməsi qaçılmazdır. Bu islahatlar ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasına və sahibkarlığın inkişafına xidmət edəcək. Çalışmalıyıq ki, daxili bazarımızı qoruyaq, Azərbaycanda istehsalın kəmiyyətini və keyfiyyətini yüksəldək. Bu, daxili bazarda qiymət siyasətinə də təsir edəcək.

**- Ötən il qeyri-neft sektoru üzrə ixrac 1 milyard 538 milyon ABŞ dolları təşkil edib və 2016-cı illə müqayisədə 24 faiz artıb. Sizcə, respublikamızda qeyri-neft sektorunun, aqrar sahənin, regionların inkişafı, stimullaşdırılması ilə bağlı daha hansı addımların atılmasına ehtiyac var?**

- Bu inkişafın təməli 2004-cü ildə qoyulub. Azərbaycan Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli fərmanı ilə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» təsdiq edildi. Bu əhəmiyyətli sənədin əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsidir. Dövlət Proqramında 600 mindən artıq yeni iş yerinin açılması prioritet məqsəd kimi qarşıya qoyuldu. Həmin sənəddən irəli gələn vəzifələr qısa zamanda icra olunaraq, qeyri-neft sektorunun inkişafına, iqtisadiyyatın şaxələndirilməsinə geniş imkanlar yaratdı. O vaxtdan regionlarda həyat yeni mərhələyə qədəm qoydu, ölkədə əsaslı yenidənqurma, iş yerlərinin yaradılması istiqamətində ciddi dönüş yaradıldı.

Məlumdur ki, neft tükənən sərvətdir. Odur ki, biz neftdən gələn sərvət hesabına qeyri-neft sektorunun inkişafına, şaxələndirilməsinə çalışmalı, bu sahədə stimullaşdırıcı addımlar atmalıyıq. Bu istiqamətdə dövlət proqramlarının icrası, fərmanlar və sərəncamlar artıq nəticə verməkdədir.

«Azexport.az» portalının və Rəqəmsal Ticarət Qovşağının fəaliyyətə başlaması ölkə iqtisadiyyatının rəqəmsallaşdırılması, xüsusilə e-ticarət, e-bankinq, e-kommersiya fəaliyyətlərinin inkişafına bir töhfə oldu. Bundan başqa, ixrac subsidiyaları, investisiya təşviqi, sənaye parkları, aqroparklar, texnoparklar, sənaye məhəllələri, xaricdəki ticarət evləri, ticarət missiyaları və sərgilərdə iştirak iqtisadi aktivliyin yüksəlməsinə, sərmayə qoyuluşunun çoxalmasına, yeni iş yerlərinin açılmasına, məhsul və xidmət istehsalının və ixracının artmasına zəmin yaradır.

Məhz əvvəlki illərdə yaratdığımız infrastruktur və həyata keçirdiyimiz layihələr bu gün Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsinə və regionlarda yeni istehsal sahələrinin yaradılmasına imkan verib. Kənd təsərrüfatında yaddan çıxmış ənənəvi sahələrin dirçəldilməsinə diqqət artırılıb. Yeni ixracyönümlü məhsulların istehsalına başlanılıb və iqtisadiyyatımızın idxaldan azad olunması istiqamətində ciddi addımlar atılıb.

2017-ci ildə sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi və hesablanan faizlərə görə subsidiya verilməsi qaydaları təsdiq edilib. İpoteka və Kredit Zəmanət Fondunun yaradılması real sektorla maliyyə sektoru arasındakı iqtisadi tarazlığın bərpa olunması, maliyyə risklərinin bölüşdürülməsi, bankların dayanıqlığının və real sektora maliyyə axınının gücləndirilməsi, əksdollarlaşmanın stimullaşdırılması və Azərbaycanda rəqəmsal ödənişlərin genişləndirilməsi üçün mühüm addımdır. Bu, maliyyə inklüzivliyinin artırılması, sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi və maliyyə xidmətləri ilə təminatının yaxşılaşdırılmasına xidmət edəcək. Ölkədə maliyyə inklüzivliyinin artımına nail olmaq iqtisadi fəaliyyətin dəstəklənməsinə, sahibkarlığın inkişafına, məşğulluğun yaxşılaşdırılmasına da əlavə dəstək verəcək.

Aqrar sahənin inkişafını sürətləndirmək üçün «Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı», «Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı» və «Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı» qəbul olunub. Artıq ölkədə strateji iqtisadi planların, dövlət proqramlarının, inkişaf konsepsiyalarının, strategiyaların, tədbirlər planlarının layihələrinin hazırlanması zamanı strateji yol xəritələrinin müddəaları rəhbər tutulur.

**- Ölkəmizin iqtisadi həyatında gedən proseslərə beynəlxalq maliyyə qurumlarının hesabatlarında da xüsusi diqqət yetirilir...**

- Azərbaycanın dövlət başçısı həmişə və hər yerdə ölkəmizin müstəqilliyini ön plana çəkir. Bütün danışıqlar və beynəlxalq sazişlər məhz respublikamızın müstəqilliyi ilə əlaqələndirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar səmərəli idarəetmənin təmin olunmasını, bazarın liberallaşdırılmasını və məhsuldarlığın artırılmasını şərtləndirir. Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycanda aparılan uğurlu iqtisadi islahatları yüksək qiymətləndirir. Dünya İqtisadi Forumunun «Qlobal rəqabətlilik hesabatı»nda və Dünya Bankı tərəfindən təqdim olunan «Doing Business 2018» hesabatında ölkəmizin mövqeyinin irəliləməsi dövlət başçısının rəhbərliyi ilə aparılan iqtisadi islahatların nəticəsində mümkün olub.

Dünya İqtisadi Forumunun illik «İnklüziv inkişaf indeksi - 2018» hesabatında Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında üçüncü yeri tutub. Bu bizim üçün çox önəmli hadisədir, böyük uğurdur. Ölkədə internet infrastrukturunun inkişafı, əhalinin 80%-dən çoxunun internetdən, informasiya texnologiyalarından istifadə etməsi, «ASAN xidmət» mərkəzlərinin sayının çoxalması, səyyar «ASAN xidmət»in fəaliyyətinin intensivləşməsi, kiçik və orta sahibkarlar üçün çoxsaylı proqramların qəbul edilməsi, 2000-dən çox ailə təsərrüfatının yaradılması kimi tədbirlər Azərbaycanda inkluziv inkişafı gücləndirmişdir.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycan «İnklüziv İnkişaf İndeksi 2018» hesabatında irəliləyib

**Dünya İqtisadi Forumunun «İnklüziv inkişaf indeksi 2018»də Azərbaycan Litva və Macarıstan istisna olmaqla, inkişaf etməkdə olan digər ölkələri geridə qoyaraq üçüncü yerdə qərarlaşıb, MDB məkanında isə birincidir.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin əməkdaşı Nicat Hacızadə bildirib ki, hesabat hazırlanan zaman 15 sahə və 3 əsas indikator üzrə qiymətləndirmə aparılıb. Birincisi inkişaf indikatorudur ki, burada ölkələr üzrə adambaşına düşən ÜDM, əmək səmərəliliyi, orta ömür müddəti və məşğulluq səviyyəsi nəzərə alınıb. İkinci istiqamət kimi yoxsulluq səviyyəsi, gəlirlərin alıcılıq qabiliyyəti, ortagəlirlilik əsas götürülüb. Üçüncü istiqamət isə dayanıqlılıqdır. Burada xalis qənaət, yığımlar, dövlət borcu, asılılıq ayrı-ayrı qiymətləndirilir. Bu indikatorlar hesablanan zaman aparıcı beynəlxalq qurumların, o cümlədən Dünya Bankının hesabatlarından istifadə olunub: «İnklüziv İnkişaf İndeksi» iqtisadi proseslərin iştirakçılarına cəmiyyətin hər bir sahəsi üçün faydaları olan bərabər imkanlar təmin edən konsepsiyadır. Bu konsepsiya iqtisadi inkişafın ənənəvi modellərini genişləndirir, səhiyyə sahəsində bərabərliyə, insan kapitalına, ətraf mühitin keyfiyyətinə, sosial müdafiəyə və ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetirir. İnklüziv inkişaf indeksi ümumi daxili məhsulun alternativi kimi işlənib hazırlanır. Ötən ilin bəzi statistik göstəricilərinə diqqət yetirsək görərik ki, Azərbaycanda ÜDM əvvəlki illə müqayisədə 0,1% artaraq 70 milyard 135,1 milyon manata çatıb, onun 62,8%-i iqtisadiyyatın qeyri-neft sahələrində, 37,2%-i isə neft-qaz sektorunda istehsal edilib. Bu dövrdə iqtisadiyyatın neft sektorunda istehsal olunan əlavə dəyər 5% azalsa da, qeyri-neft sektorunda 2,7% artım qeydə alınıb.




Qeyri-neft sənayesində məhsul istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,7%, bu sahədə yaradılan əlavə dəyər isə 3,8% artıb. Şübhəsiz ki, bu göstəricilər Azərbaycanda sosial-iqtisadi inkişafın dinamik xarakter almasını şərtləndirən düzgün strategiyanın işlənib hazırlanması və reallaşdırılması, səhiyyəyə, insan kapitalına, ətraf mühitin keyfiyyətinə, sosial müdafiəyə, habelə ərzaq təhlükəsizliyinə xüsusi önəm verilməsi sayəsində əldə edilib».

Hesabatı şərh edən iqtisadçı Qalib Toğrulun sözlərinə görə, inklüzivlik, yəni bərabərlik hesabatı Azərbaycan üçün bir neçə istiqamətdə inkişafın təmin edilməsinin mühüm göstəricisi sayıla bilər: «Dünya İqtisadi Forumu iqtisadi inkişafın ənənəvi modellərinə xüsusi diqqət yetirərək sosial bərabərlik indikatoru üzrə səhiyyə, insan kapitalı, ətraf mühitin keyfiyyəti, sosial müdafiə və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi kimi amilləri də təhlil edir. Araşdırmalar göstərir ki, Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar kursu həmin meyarlara tam uyğundur, dövlət xərclərinin mühüm hissəsi sosial müdafiəyə yönəldilir. 2018-ci ilin dövlət büdcəsi xərclərinin 33%-nin sosial xərclərə sərf edilməsi nəzərdə tutulub. Hesabatın «dayanıqlılıq» indikatoruna əsasən, Azərbaycan dövlət borcunun ÜDM-də payına görə MDB-də və regionda lider mövqedə qərarlaşıb. Bundan əlavə, ölkəmizin strateji valyuta ehtiyatları beynəlxalq iqtisadi qurumlar qarşısında rahat borc götürməyə imkan yaradır. Hesabatda iqtisadi inkişafın əldə olunmasında mühüm rol oynayan biznesə dövlət dəstəyinin artırılması, şəffaflığın təmin edilməsi də əsas faktorlar kimi qiymətləndirilib. Kiçik və orta sahibkarlar üçün çoxsaylı proqramların qəbul edilməsi, 2000-dən çox ailə təsərrüfatının yaradılması kimi tədbirlər, həmçinin «ASAN xidmət» mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi də azad biznesin inkişafı və şəffaflıq üçün mühüm əhəmiyyət daşıyır».

**E.CƏFƏRLİ**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Əməkhaqqından vergi

***Həyatın yığım sığortası üzrə sığortalanan işçinin əməkhaqqından vergi hansı qaydada tutulur?***

Vergi Məcəlləsinin (VM) 102.1.8-ci maddəsinə uyğun olaraq, sığorta hadisəsi baş verdikdə sığortaolunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait, həmçinin işəgötürən tərəfindən ödənilən bütün növ icbari sığorta və könüllü tibbi sığorta haqları, 3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığortaolunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğ fiziki şəxslərin gəlir vergisindən azaddır.

Fiziki şəxsin Azərbaycan Respublikası sığortaçıları ilə 3 ildən az olmayan müddətə bağlanmış və sığorta ödənişinin sığorta müqaviləsinin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra verilməsini nəzərdə tutan həyatın yığım sığortası və pensiya sığortası üzrə bağladığı sığorta müqavilələri əsasında ödədiyi sığorta haqları vergitutma məqsədləri üçün işəgötürən tərəfindən həmin fiziki şəxsin muzdlu işlə əlaqədar alınan gəlirindən çıxılır (VM, maddə 116.2).

İşəgötürən tərəfindən fiziki şəxsin muzdlu işlə əlaqədar alınan gəlirindən çıxılan həyatın yığım sığortası və pensiya sığortası üzrə ödədiyi sığorta haqları yalnız bank vasitəsilə sığortaçının bank hesabına ödənildikdə çıxılır.

VM-in 116.2-ci maddəsində nəzərdə tutulan sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, ödənilmiş sığorta haqları sığortaçı tərəfindən ödəmə mənbəyində vergiyə cəlb olunur (VM, maddə 116.3).

VM-in 101.1-ci maddəsinə uyğun olaraq, muzdla işləyən fiziki şəxslərin aylıq gəlirinin 2500 manatadək olan hissəsindən 14 faiz, 2500 manatdan çox olduqda isə 350 manat əlavə edilsin 2500 manatdan çox olan məbləğin 25 faiz dərəcəsi ilə vergi tutulur.

**Qeyd olunanlara əsasən:**

Fiziki şəxsin Azərbaycan Respublikası sığortaçıları ilə 3 ildən az olmayan müddətə bağlanmış və sığorta ödənişinin sığorta müqaviləsinin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra verilməsini nəzərdə tutan həyatın yığım sığortası üzrə ödənilən sığorta haqqı işəgötürən tərəfindən bank vasitəsilə sığortaçının bank hesabına köçürüldüyü halda, sığorta haqqı fiziki şəxsin muzdlu işlə əlaqədar aylıq gəlirindən çıxılaraq qalan hissəsindən VM-in 101.1-ci maddəsinə uyğun olaraq gəlir vergisi tutulur.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

2017-ci ildə…

- Azərbaycan və Gürcüstan arasında ticarət dövriyyəsinin həcmi **881,9 mln.** dollar təşkil edib.
- Azərbaycanda dəniz nəqliyyatı ilə daşınmış yüklərin həcmi **8344,6 min** ton təşkil etməklə 2016-cı ilə nisbətən 43,7% artıb.
- Pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin səviyyəsini müqayisəli qiymətlərlə 2,5% üstələyərək **35,3 milyard** manata bərabər olub.
- Ümumilikdə, ölkədə **38 milyon 688,9 min** ton neft, 28 milyard **597,9 milyon** kubmetr təbii qaz hasil edilib.
- Azərbaycana **13 min 98** ədəd avtomobil idxal olunub və bu göstərici 2016-cı illə müqayisədə təxminən 2 dəfə azdır.




# Azərbaycanda qeyri-neft sektoru yeni inkişaf mərhələsində

**Ötən il ölkəmizdə ümumi daxili məhsul (ÜDM) istehsalında 0,1 faiz artım qeydə alınıb. ÜDM-in 62,8 faizi iqtisadiyyatın qeyri-neft sahələrində, 37,2 faizi isə neft-qaz sektorunda istehsal edilmişdir.**




Dövlət Statistika Komitəsinin məlumatına görə, il ərzində iqtisadiyyatın neft sektorunda istehsal olunmuş əlavə dəyər 5 faiz azalmış, qeyri-neft sektorunda isə 2,7 faiz artmışdır. Nəqliyyat və anbar təsərrüfatı sahələrində 8,5 faiz, informasiya və rabitə sahələrində 6,6 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 5,9 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 4,2 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində 2,5 faiz, sosial və digər xidmət sahələrində 1,5 faiz artım qeydə alınmışdır. Qeyri-neft sənayesində məhsul istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,7 faiz, yaradılmış əlavə dəyər isə 3,8 artmışdır. ÜDM istehsalının 40,1 faizi sənayenin, 10,4 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrinin, 9,5 faizi tikintinin, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatının, 5,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşənin, 1,6 faizi informasiya və rabitənin, 16,4 faizi isə digər sahələrin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər keçən il ÜDM-in 7,3 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 7205 manata bərabər olmuşdur.

İqtisadi və Sosial İnnovasiyalar İnstitutunun rəhbəri, Milli Məclisin üzvü Əli Məsimli hesab edir ki, 2015-2016-cı illərlə müqayisədə 2017-ci ildə bir çox sahələrdə müsbət meyillər özünü göstərmişdir: «Manat 2017-ci ilin fevralından sabitləşməyə başladı. Ölkə iqtisadiyyatına 15 milyard manatdan artıq sərmayə qoyuldu. Bir çox istiqamətlərdə olduğu kimi, ödəniş balansında da saldo mənfidən müsbətə doğru dəyişdi. Beləliklə, 2017-ci il Azərbaycan iqtisadiyyatında həm islahatlar, həm də irəliləyişlərlə müşahidə olunmağa başladı. Bütün bunlar onu deməyə əsas verir ki, artıq iqtisadiyyatın ağır mərhələsi arxada qalıb, durğunluqdan dirçəliş mərhələsinə keçid başlanıb».

Azərbaycan hökumətinin hazırladığı 2018-ci il və sonrakı üç il üzrə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə əsasən, 2018-ci ildə ölkədə ÜDM-in real ifadədə artımı 1,5 faiz olmaqla 69,4 milyard manat təşkil edəcək. Qeyri-neft sektorunda ÜDM-in real ifadədə 2,9 faiz artaraq 47,6 milyard manat olacağı proqnozlaşdırılır. Özəl sektorun ÜDM-də real payı 83 faiz həcmində nəzərdə tutulur.

Beynəlxalq təşkilatlar isə artımın daha çox olacağını proqnozlaşdırırlar. Məsələn, nüfuzlu beynəlxalq reytinq agentliyi «Standart & Poors»un (S&P) proqnozlarına əsasən, 2018-ci ildə Azərbaycanda ÜDM 2 faiz (nominal həcmi 44 milyard dollar), 2019-cu ildə isə 3,5 faiz (nominal həcmi 47 milyard dollar) artacaq. Proqnozların bu səviyyədə olması «Şahdəniz-2» qaz yatağından nəqlin başlaması, qeyri-neft sektorundakı inkişaf və investorların iqtisadi inkişafa inamının yüksəlməsi, inflyasiyanın səngiməsi fonunda istehsalın artması ilə əsaslandırılır.

**Rəşad SADIQOV**

# Azərbaycan regionda mühüm nəqliyyat-logistika mərkəzinə çevrilir

Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə tanışlıq zamanı Azərbaycanın regionda mühüm nəqliyyat-logistika mərkəzinə çevrildiyini, yeni yaradılan strateji nəqliyyat qovşaqlarının Avropa İttifaqı (Aİ) ölkələri ilə əlaqələri genişləndirəcəyini vurğulayıb.

O, yeni Bakı Limanın Avropa-Asiya ticarət dövriyyəsində mühüm yer tutduğunu deyib: «Azərbaycan Avropa İttifaqının yaxın tərəfdaşıdır və biz bu tərəfdaşlığı daha da inkişaf etdirmək niyyətindəyik. Azərbaycan Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi mühüm rol oynayır. Mən çox məmnunam ki, Aİ həm əməliyyat imkanlarının artırılması, həm də beynəlxalq logistika və ticarət mərkəzinə çevrilməsi baxımından Bakı Limanını dəstəkləyir və gələcəkdə də dəstəkləyəcək. Bu müasir liman genişlənmiş Avropanın Trans-Avropa şəbəkəsinin bir hissəsidir».

H.Hololeyin sözlərinə görə, Azərbaycanla Aİ arasında daha dərin əlaqələrin təmin edilməsi çox vacibdir: «Biz bunu Azərbaycanın Trans-Avropa şəbəkələrinin bir hissəsinə çevrilməsinə imkan yaradacaq əsaslı aviasiya razılaşması və sıx dəniz əməkdaşlığı vasitəsilə həyata keçirməkdə qətiyyətliyik. Aİ Bakı Limanını beynəlxalq logistika və ticarət mərkəzinə çevrilməsi baxımından dəstəkləyir və gələcəkdə də dəstəkləyəcək».

«Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin baş direktoru Taleh Ziyadov bildirib ki, yeni limanın inşası ölkənin regional nəqliyyat qovşağına çevrilməsi siyasətində mühüm yer tutur. Hazırda limanda ən son texnologiyalar tətbiq olunur, informasiya texnologiyaları sistemi bütün əməliyyatların avtomatlaşdırılmasına, yük sahibinə onlayn rejimdə yükə nəzarət etməyə, malın ərazidəki yerini təyin etməyə və digər məlumatların əldə olunmasına imkan verir. Limanda tikinti işləri bitmək üzrədir. Bu il nəzərdə tutulan işlər başa çatdıqdan sonra 12 körpüdən ibarət olacaq limanın yükaşırma qabiliyyəti 15 milyon tona və 100 min konteynerə çatacaq. Gələcəkdə tam istifadəyə verildikdən sonra liman 17 körpü vasitəsilə, ildə 500 min konteyner daxil olmaqla, 25 milyon ton yük aşıra biləcək. 2017-ci ilin yanvar ayından Aİ-nin Bakı Limanının əməliyyat imkanlarının yaxşılaşdırılmasına dəstək layihəsinin yerinə yetirilməsinə başlanılıb. Layihə çərçivəsində Aİ-nin Antverp, Hamburq, Koper və Triest kimi qabaqcıl limanlarına təlim səfərləri təşkil olunub və təcrübə mübadiləsi aparılıb.

Ümumiyyətlə, Bakı Limanının müasir və şəffaf prinsiplərə söykənən əməliyyat sistemi, «yaşıl» və «smart» texnologiyalardan istifadə Aİ tərəfindən dəstəklənir. Aİ ilə Asiya arasındakı ticarət dövriyyəsinin artdığı bir vaxtda Bakı Limanı bu tranzitin əlaqələndirilməsində mühüm vasitəyə çevrilə bilər.

İqtisadiyyat nazirinin müavini Sahil Babayev bildirib ki, Azərbaycanın tranzit imkanlarından daha geniş və səmərəli istifadə edilməsi, bu sahədə vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və bu istiqamətdə həyata keçirilən işlərin əlaqələndirməsi məqsədilə yaradılmış Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası indiyədək bir sıra mühüm addımlar atıb: tranzit prosedurları sadələşdirilib, xidmət haqları endirilib. Hazırda daşımaların vahid prinsip və şərtlərinin müəyyən olunması, tariflərin optimallaşdırılması, daşıyıcılarla dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, şəffaflığın təmin olunması, daşınma prosedurlarının sayının və müddətinin azaldılması, koordinasiya işlərinin gücləndirilməsi istiqamətində işlər irəliləməkdədir. İxracatçıların qarşılaşdıqları əsas problemlərdən biri olan mənşə və keyfiyyət sertifikatlarının əldə olunmasının asanlaşdırılması üçün ən yaxın zamanlarda qanunvericiliyə bəzi dəyişikliklərin edilməsi nəzərdə tutulur.

# Fərdi uçot sistemi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində 2017-ci ildə əlavə olaraq 193 min 188 vətəndaşa uçot dövründə daimi sosial sığorta nömrəsi ilə fərdi şəxsi hesab açılıb. Sığortaolunan üçün açılan fərdi şəxsi hesab sistemdə onun bütün ömrü boyu, ölümündən sonra isə əmək pensiyası işlərinin saxlanılması qaydasında nəzərdə tutulmuş müddət ərzində mühafizə olunub saxlanılır. 2018-ci ilin 1 yanvar tarixinə fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 3 milyon 566 min 745 nəfərə çatıb.

Qeyd edək ki, «Sığortaolunanın onlayn uçota alınması», «Sığortaolunanlara məlumatların verilməsi», «Sığortaedənin uçot nömrəsinin öyrənilməsi», «Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi», «Sığortaedənin uçot nömrəsinin öyrənilməsi», «Sığortaedənin (fiziki şəxs) onlayn uçota alınması» və s. elektron xidmətlər vasitəsilə vətəndaşlara sosial sığorta münasibətləri üzrə bütün xidmətlərdən elektron müstəvidə faydalanmaq imkanları yaradılıb. «Sığortaolunanlara məlumatların verilməsi» e-xidməti vasitəsilə hər bir sığortaolunan fərdi hesabında toplanan pensiya kapitalı barədə mütəmadi şəkildə məlumat əldə edə bilir.

**AYTƏN**




## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Dövlət büdcəsinin sosialyönlü xərcləri artacaq

*2018-ci ilin büdcə xərclərində sosial yönümlü xərclərin (əməyin ödənişi, pensiya və müavinətlər, dərman və sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması xərclərinin cəmi) xüsusi çəkisi 33,5 faiz olmaqla, 7 milyard 4,8 milyon manat vəsait proqnozlaşdırılıb ki, bu da 2017-ci illə müqayisədə 147,9 manat və ya 2,2 faiz çoxdur.*

Vətəndaşlara bilavasitə yardım göstərən bir sıra müəssisələrə və dövlət tədbirlərinə də büdcədən maliyyə yardımının artırılması nəzərdə tutulur. Əhalinin mənzilə olan tələbatının ödənilməsi, vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi xərcləri və sosial ipoteka üzrə 250 milyon manat, kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər (20 il və daha çox xidmət etmiş, işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması və onlara pul kompensasiyalarının verilməsi ilə bağlı xərclər) üzrə 30 milyon manat, kirayə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara (ehtiyatda və istefada olan hərbi qulluqçular nəzərə alınmaqla) ödənilən pul kompensasiyaları üzrə 19,8 milyon manat, «Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyəti üzrə 89 milyon manat və «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti üzrə 10 milyon manat ayrılacaq. Həmin xərclər də nəzərə alınmaqla, dövlət büdcəsindən sosial yönümlü xərclərə 7 milyard 656,3 milyon manat vəsait yönəldiləcək ki, bu da dövlət büdcəsinin xərclərinin 36,6%-nə, cari xərclərin isə 71,1%-nə bərabər olacaq.




> Dövlət büdcəsindən sosial sahəyə 7 milyard 656,3 milyon manat vəsait yönəldiləcək ki, bu da dövlət büdcəsinin xərclərinin 36,6%-nə, cari xərclərin isə 71,1%-nə bərabər olacaq

2018-ci il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən xərclər üçün 5 milyard 371,7 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da ötən ilə nisbətən 80,8 milyon manat və ya 1,5 faiz çoxdur. Bütövlükdə, həmin sahələr üzrə nəzərdə tutulmuş xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 25,7 faiz təşkil edəcək. Xüsusən təhsil sisteminin iqtisadi inkişafın mühüm amilinə çevrilməsi, biliklərə əsaslanan iqtisadiyyata keçidin təmin olunması məqsədilə bu sahədə strateji fəaliyyət hədəfləri üzrə islahatların davam etdirilməsi büdcənin sosial tutumunu bir qədər də artırır. 2018-ci ildə dövlət büdcəsindən təhsil xərclərinə 2 milyard 1,5 milyon manat vəsait ayrılmışdır ki, bu da 2017-ci illə müqayisədə 210,3 milyon manat və ya 11,7 faiz, 2016-cı ilin icrası ilə müqayisədə isə 247,1 milyon manat və ya 14,1 faiz çoxdur. Təhsil xərcləri üçün ayrılan vəsaitin 362,7 milyon manatı və ya 18,1 faizi müvafiq dövlət proqramları və tədbirlərinin maliyyələşdirilməsinə yönəldiləcək.

**Rəşad SADIQOV**

# Sənaye məhəllələrində işlər canlanır

İqtisadiyyatın, o cümlədən yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafını və şaxələndirilməsini nəzərdə tutan məqsədyönlü siyasətin nəticəsi olaraq, son illərdə Azərbaycanda regionların sosial-iqtisadi yüksəlişinə dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, minlərlə yeni iş yeri yaradılmışdır.

Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin məşğulluğunun artırılmasıdır. Sənaye məhəlləsi üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə verilir və yalnız bu məqsədlə istifadə edilir.

Sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsini həyata keçirən «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyətinin icraçı direktoru Rövşən Nəcəf bildirib ki, 2017-ci ildə istifadəyə verilmiş Neftçala Sənaye Məhəlləsində 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir: «Rezidentlər tərəfindən sənaye məhəlləsinə ümumilikdə 45,3 milyon manat investisiya yatırılıb, 500-ə yaxın yeni iş yeri yaradılıb. 2018-ci ilin birinci rübündə Neftçala Sənaye Məhəlləsində «Azproduct» MMC (balıq konservi və soyudulmuş balıq üzrə ixtisaslaşmış), «Gilan Pivot» MMC (PİVOT suvarma sistemləri istehsalı), «Azərmaş» ASC və «İran Khodro» birgə avtomobil zavodunun fəaliyyətə başlaması nəzərdə tutulur. Sahibkarların marağı nəzərə alınaraq, yeni layihələrin icrası məqsədilə ərazinin əlavə 5 hektar genişləndirilməsi nəzərdə tutulur və artıq müvafiq prosedurlara başlanılıb.

Masallı Sənaye Məhəlləsində aparılan tikinti işlərinin birinci mərhələsi gələn ay başa çatdırılacaq və istehsal sahələri sahibkarların istifadəsinə veriləcək. Ümumi ərazisi 10 hektar olan Sənaye Məhəlləsində birinci mərhələdə üç istehsalat korpusu, inzibati və texniki binalar, köməkçi sahələr tikiləcək. Artıq sahibkarlar tərəfindən ümumi dəyəri 33 milyon manatdan çox olan 33 layihə təklifi təqdim olunub. İlk olaraq ümumi dəyəri 7,1 milyon manat olan 9 layihənin icrasına başlanılacaq. 200-dən çox iş yerinin yaradılacağı bu layihələrdən 4-ü mebel istehsalı, digərləri plastik məmulatlar, metal məmulatlar, tikinti materialları, kabel istehsalı və dulusçuluq məmulatları istehsalı sahələrini əhatə edir. Bu müəssisələrin cari ilin aprel ayında fəaliyyətə başlaması nəzərdə tutulur. Müəssisələrin işə düşməsi nəticəsində 600-dən çox yeni iş yeri açılacaq».

Hacıqabul Sənaye Məhəlləsində isə tikinti işlərinə 2018-ci ilin fevralında başlanılması və iyul ayında başa çatdırılması nəzərdə tutulur. Məhəllə əsasən ağır maşınqayırma, xüsusi vaqonqayırma, avtomobil və kompozit materialları istehsalı sahələrində ixtisaslaşacaq. Sahibkarların böyük maraq göstərdiyi Sənaye Məhəlləsinə artıq 6 layihə təqdim edilib. Bu layihələr çərçivəsində 43 milyon manat investisiya yatırılması və 850-dən çox iş yerinin yaradılması planlaşdırılır.

Xatırladaq ki, 2017-ci ildə dövlət başçısı Sabirabad Sənaye Məhəlləsinin yaradılması barədə sərəncam imzalayıb və onun təməlini qoyub. 20,3 hektar ərazidə salınacaq məhəllədə tikinti işlərinə 2018-ci ilin fevral ayının sonlarında başlanılması və birinci mərhələnin iyul ayında başa çatdırılması nəzərdə tutulur. Bu Sənaye Məhəlləsində yun tədarükü, pambıqtəmizləmə, taxta, plastik məmulatlar və tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin və logistika mərkəzinin yaradılması nəzərdə tutulur.

**AYTƏN**

# Qeyri-neft sənayesi məhsullarının ixracında artım var

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə ölkədə 28,7 milyard manatlıq sənaye məhsulu istehsal edilib və sənayedə qeyri-neft məhsullarının çəkisi 60%-dən artıq olub.

Ötən il Azərbaycanda istehsal olunan sənaye məhsullarının ixracı əvvəlki illə müqayisədə 21% çoxalıb. İxracın artmasına son illərdə yaradılan sənaye müəssisələrində rəqabətədavamlı məhsulların istehsalı mühüm təsir göstərib. İqtisadçı Ruslan Atakişiyev hesab edir ki, ölkədə tətbiq edilən vergi güzəştləri qeyri-neft sənayesinə müsbət təsir göstərir. Qısa müddət ərzində ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən və müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələr yaradılıb. Sənaye və texnologiya parklarına 2013-cü il yanvarın 1-dən güzəştli vergi rejiminin tətbiq olunması (sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 7 il müddətinə mənfəət (gəlir), əmlak və torpaq vergilərindən azad edilib) son 5 ildə həmin sahələrdə əldə olunan istehsala təsirini göstərməkdədir. Qarşıdakı 2 il ərzində də bu sahəyə stimullaşdırıcı vergi güzəşti davam etdiriləcək və proqnozlara görə, məhsul istehsalı və ixracı ən azı iki dəfə yüksələcək.

Vergi və gömrük məsələləri üzrə mütəxəssis Elşad Hacalıyevin sözlərinə görə, vergi güzəştləri sənayedə bir neçə istiqamət üzrə stimulverici rol oynamaqdadır. Bu güzəştlər sənaye sektoruna, xüsusilə də texnoparklar, sənaye məhəllələri və digər sənayetutumlu sahələrə investisiya qoyuluşlarının artmasına zəmin yaradıb: «2017-ci ildə sənaye sahəsinə investisiya qoyuluşları təxminən 7 milyard manat təşkil edib. Türkiyə, Kanada, Cənubi Koreya, Çin, Avstriya, Almaniya, Malayziya, Fransa, İtaliya və Yaponiyadan olan şirkətlər Azərbaycanla sənaye parkları sahəsində sıx əməkdaşlıq edirlər. Fransanın «Thales Group», «Air Liquied», Almaniyanın «Vinnolit GmbH & Co.Kg», Yaponiyanın «İtochu Corporation», «Marubeni Corporation» və digər xarici şirkətlərin ölkəmizlə əməkdaşlığa marağı daha böyükdür».

Son 5 ildə Azərbaycanda fiber optik kabellər, plastik borular, elektrik avadanlıqları, alüminium və plastik pəncərə profilləri, günəş kollektorları, müxtəlif maşınqayırma, polad məmulatları və məişət avadanlıqlarının çeşidi əhəmiyyətli dərəcədə artıb. Ötən il ixracın strukturunda həmin növ məhsullar xüsusi yer tutub. Müasir tipli sənaye müəssisələri «yaşıl iqtisadiyyat»ın, təkrar emal sənayesinin inkişafında da əhəmiyyətli rola malikdir.

İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin müdiri Murad Abdullayev bildirib ki, sənayenin inkişafı ilə bağlı icra olunan Dövlət Proqramının hədəflərindən biri xarici investorların ölkəmizin sənaye sahələrinə cəlb olunması üçün əlverişli biznes-investisiya mühitinin təmin edilməsi, təşviqedici və stimullaşdırıcı addımların atılmasıdır. Bu siyasətə uyğun olaraq, xarici ölkələrin, beynəlxalq sənaye korporasiya və şirkətlərinin rəhbərləri ilə sərmayə qoyuluşu imkanları və perspektiv əməkdaşlıq barədə səmərəli danışıqlar aparılıb. Xarici sərmayəçilərlə əməkdaşlıq əsasında perspektivdə ağır sənaye, maşınqayırma, tikinti, məişət malları istehsalı üzrə Gəncə və Qarabağda müasir sənaye parkı və məhəllələrinin yaradılması da planlaşdırılır.

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Çində, Şanxay azad ticarət zonasında Azərbaycan Ticarət Mərkəzi yaradılacaq.

Bu il geri qaytarılan vəsaitlər hesabına sahibkarlara 170 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur.

İnvestisiya qoyuluşunun təşviqi məqsədilə indiyədək 208 sahibkarlıq subyektinə 230 investisiya təşviqi sənədi verilib.

Ötən il əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2016-cı illə müqayisədə real ifadədə 1,2 faiz artaraq 8 milyard 636 milyon manat olub.

Azərbaycan may ayında Koreyada keçiriləcək «Seoul Food 2018» sərgisində iştirak edəcək.

«Cənubi Qafqaz» qaz boru kəmərinin genişləndirilməsi layihəsi çərçivəsində Gürcüstanda görülən işlər artıq başa çatıb.

# Elektron qaimə-fakturanin tətbiqi ilə bağlı tədbir

11 saylı Ərazi Vergilər Departamentində istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə keçirilmiş görüşün əsas mövzusu elektron qaimə-fakturanin tətbiqi ilə bağlı olub. Yevlax şəhərində təşkil edilmiş tədbirdə departamentin baş direktoru, baş vergi xidməti müşaviri Zaur Adilov görüş iştirakçılarına elektron qaimə-fakturanın tətbiqinin zəririliyi və əhəmiyyəti barədə məlumat verib. Vergi ödəyicilərinə elektron qaimə-fakturanın tətbiqi departamentin mütəxəssisləri tərəfindən ətraflı izah edilib, maraq doğuran suallar cavablandırılıb.

# Musiqiçilərlə görüş

12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşları Gəncə şəhərindəki şadlıq evlərində fəaliyyət göstərən musiqiçilərlə görüş keçirib. Departamentin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev musiqiçilərə sadələşdirilmiş vergi üzrə sabit vergi haqqında məlumat verərək bildirib ki, qəbz almadan fəaliyyət göstərən şəxslər vergidən yayınmış olurlar ki, bu da onların məsuliyyətə cəlb edilmələri ilə nəticələnir. Görüş zamanı musiqiçilərə sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği haqqında bildirişlər təqdim olunub. Şadlıq evlərinin rəhbərlərinin isə nəzərinə çatdırılıb ki, sadələşdirilmiş vergi üzrə sabit vergi qəbzi almayan şəxslərin onların obyektlərində fəaliyyət göstərməsinə icazə verməməlidirlər.


## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# «Elektron qutu» – operativlik, vaxta qənaət, şəffaflığa zəmanət...

Uzun illər vergi orqanları ilə ödəyicilər arasındakı yazışmalar mürəkkəb və xeyli vaxt aparan prosedurlarla müşayiət olunurdu. Vergi ödəyicisi hər hansı məlumatı əldə etməkdən ötrü bir neçə məktub yazmalı, onun cavabını günlərlə gözləməli idi. «Elektron qutu»nun tətbiqi kağız yazışmalarına son qoydu və vergi orqanı-ödəyici münasibətləri keyfiyyətcə yeni mərhələyə daxil oldu.

Vergilər Nazirliyi vergi ödəyicilərinin və vətəndaşların işini asanlaşdırmaq məqsədilə 2010-cu il martın 1-dən etibarən «Elektron qutu» («e-qutu») sistemini istifadəyə verdi. Bu məqsədlə nazirliyin İnternet Vergi İdarəsində innovativ texnologiyalardan biri - «Onlayn kargüzarlıq» altsistemi və fərdi elektron qutu - «e-qutu» bölməsi yaradılaraq Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) daxili kargüzarlıq sisteminə inteqrasiya olundu.



### «E-qutu» nədir...

«E-qutu» sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədilə qeydiyyata alınan hər bir vergi ödəyicisinin şəxsi elektron kabineti deməkdir. Bu sistem «Elektron hökumət» quruculuğunun atributlarından biri kimi «vətəndaş-dövlət», «biznes-dövlət» və «biznes-biznes» münasibətlərinin müasir beynəlxalq standartlar səviyyəsində təşkil edilməsində mühüm rol oynayır. «E-qutu» vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin aparılmasını təmin edir.



### İstifadə qaydaları və üstünlükləri

Vergi ödəyicisi «E-qutu»ya www.taxes.gov.az rəsmi internet səhifəsində şifrə-parol və kod vasitəsilə daxil olaraq «Onlayn kargüzarlıq» altsistemindəki «Gələnlər və göndərilənlər» qutusundan özünə aid məktubları oxumaq imkanı əldə edir. Bundan başqa, istifadəçi vergi orqanına göndəriləcək müraciətin mətnini hazırlaya, gərək olduqda buraya qoşma fayllar da əlavə edə bilir.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinə imkan verən «E-qutu» sisteminin tətbiqində əsas məqsəd sənəd dövriyyəsinin sürətlənməsi, şəffaflığın təmin olunması, sənəd qeydiyyatının mərkəzləşdirilməsi, işçilərin əmək məhsuldarlığının yüksəldilməsi və vergi ödəyicilərinin müraciətlərinə daha operativ cavab verilməsidir. Sistem istifadəçinin göndərdiyi sənədlərin vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləməyə və icraçının telefonunu öyrənərək onunla birbaşa əlaqə yaratmağa imkan verir. «E-qutu» il ərzində tonlarla kağıza və izafi dəftərxana xərclərinə qənaət olunmasına da şərait yaradır.



### Məktubların və digər sənədlərin göndərilməsi

Vergi orqanından istifadəçilərə ünvanlanan məktublar, cavablar, uyğunsuzluq məktubları, bildirişlər, xəbərdarlıqlar və sair sənədlər imzalanan kimi ödəyicinin elektron qutusuna göndərilir. Həmin sənədlər qutuya toplanır və internet vasitəsilə istənilən yerdən onlarla tanış olmaq mümkündür. Fərdi elektron qutu vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin səmərəliliyini artırır və sənədlərin ənənəvi üsulla - kağız daşıyıcılarında göndərilməsi ilə müqayisədə vaxt və resurs itkilərinin qarşısını alır. «Elektron qutu»nun tətbiqi nəticəsində sənəd dövriyyəsi, sənədlərin vahid qeydiyyatı və ödəyicilərin müraciətlərinin operativ emalı prosesi xeyli sürətlənib.

Bundan başqa, istifadəçilər «E-qutu»ya göndərilmiş sənədlərlə yanaşı, vergi sistemində baş verən yeniliklər, qanunvericiliklə nəzərdə tutulmuş dəyişikliklər, həmin dəyişikliklərdən irəli gələn tələblər, onlarla bağlı müəyyən edilmiş hüquq və vəzifələr barədə məlumatlarla da tanış ola bilirlər.



### Ərizələrin göndərilməsi

«E-qutu » sistemində bir sıra ərizələri elektron formada təqdim etmək mümkündür: nəzarət-kassa aparatlarının qeydiyyata alınması, qeydiyyatdan çıxarılması, fiziki və hüquqi şəxslərin e-qeydiyyatı, qeydiyyatın dayandırılması və sair ərizə növləri bu sistem vasitəsilə göndərilir. İnternet Vergi İdarəsi vasitəsilə sahibkarlıq subyektlərində keçirilən yoxlamalar barədə dövlət reyestrinə daxil edilməli məlumatların Vergilər Nazirliyi tərəfindən Ədliyyə Nazirliyinə ötürülməsi və qeydiyyata alınmış yoxlamalar barədə reyestrdən çıxarışların Ədliyyə Nazirliyindən alınması, habelə yoxlamaların nəticəsi barədə məlumatların Ədliyyə Nazirliyinə ötürülməsi elektron qaydada həyata keçirilir. POS-terminalların elektron qeydiyyatı da «Onlayn kargüzarlıq» vasitəsilə həyata keçirilir.



### Ödəyicilər arasında yazışma

Vergi ödəyiciləri öz aralarındakı yazışmalarda da «e-qutu»dan istifadə edə bilirlər. Vergi orqanlarının istifadəçilərə və vergi ödəyicilərinin bir-birinə göndərdikləri məktublar və cavablar həmin anda öz ünvanına çatır, istifadəçilərə məxsus qutuya toplanır. Həmin məktublara isə internet vasitəsilə istənilən yerdə baxmaq mümkündür.

Yeri gəlmişkən, indiyədək vergi ödəyicilərinin «elektron qutu»larına göndərilən sənədlərin oxunması səviyyəsi 73% təşkil edir.

**ELBRUS**

# İxrac mexanizmi təkmilləşdirilir

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 yanvar tarixli fərmanı ilə «Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası»nda düzəliş edilib. Yeni qaydalara əsasən, Azərbaycan ərazisinə alıcı missiyaları təşkil olunacaq.

Azərbaycanın iqtisadi və ticarət əlaqələri, qeyri-neft məhsullarının ixrac potensialı, habelə ixracatçılardan daxil olmuş müraciətlər nəzərə alınmaqla alıcı missiyalarının tarixini və iştirak edəcək tərəfdaşların siyahısını İqtisadiyyat Nazirliyi müəyyən edəcək və bu barədə məlumatı öz rəsmi internet saytında yerləşdirəcək. Qaydalara görə, hər alıcı missiyasının müddəti 6 gündən və hər alıcı missiyasında iştirak edən alıcıların sayı 10 nəfərdən artıq ola bilməz. Missiyada alıcı yalnız bir nümayəndə ilə təmsil edilə bilər. Bundan başqa, təşkil edilən alıcı missiyalarının sayı təqvim ili ərzində 20-dən çox ola bilməz.

Qeyd edək ki, 2017-ci ildə 10 ixrac missiyası təşkil edilib, Azərbaycan şirkətləri xarici ölkələrdə təşkil edilən 5 beynəlxalq sərgidə «Made in Azerbaijan» vahid ölkə stendi ilə təmsil olunub. Bu tədbirlər çərçivəsində Səudiyyə Ərəbistanı, İspaniya, Misir, Əfqanıstan, Rusiya, Belarus, Litva və digər ölkələrə Azərbaycan istehsalı olan meyvə-tərəvəz, nar şirəsi, şərab məhsulları, ət məhsulları, quru süd, fındıq, qənnadı məhsulları, bal, çay kimi kənd təsərrüfatı və qida sənayesi məhsullarının, həmçinin Naftalan nefti, tikinti materialları, mebel və digər məhsulların ixracına dair 70-ə yaxın müqavilə imzalanıb və razılaşmalar əldə olunub. Rusiya Federasiyasının «Rossiya 24» telekanalında Azərbaycanın meyvə və meyvə şirələrinə dair reklam çarxları nümayiş etdirilib, şirkətlərin sifarişi əsasında 30-dan çox məhsul üzrə araşdırmalar aparılıb.

Azərbaycan Prezidentinin 2018-ci il 11 yanvar tarixli Fərmanı ilə ixracın dəstəklənməsi mexanizmlərinin və stimullaşdırıcı tədbirlərin əhatə dairəsi daha da genişləndirilib. Fərmana uyğun olaraq, 2018-ci ildə xarici ölkələrə daha çox ixrac missiyaları həyata keçiriləcək və ilk dəfə olaraq Azərbaycana alıcı missiyaları təşkil ediləcək, beynəlxalq sərgilərdə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunacaq, ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyi daha da gücləndiriləcəkdir. Bu il Azərbaycan məhsullarının xarici ölkələrdə təşviqi məqsədilə təşkil ediləcək tədbirlərdə 2018-ci ilin əvvəlində təqdimatı keçirilmiş yeni «Made in Azerbaijan» loqosundan istifadə olunacaq.

**Fəxriyyə İKRAMQIZI**

# Məqsəd ölkəyə xarici investisiya axınını gücləndirməkdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı təhlillər göstərir ki, xarici investorlar ölkədə əlverişli biznes mühitinin yaradılmasına, investisiya qorunma sisteminin mövcudluğuna xüsusi diqqət ayırırlar.

«Bir Pəncərə» İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə bildirmişdir ki, Azərbaycan Prezidentinin sərəncamı əsasında hazırlanmaqda olan «İnvestisiya fəaliyyəti haqqında» qanun layihəsi 5 əsas istiqaməti - investisiya fəaliyyəti haqqında dövlət siyasətinin təyin olunması; investisiyaların təşviqi; dövlət zəmanətinin verilməsi; xarici investorların hüquqlarının qorunması; dövlət zəmanətinin verilməsi qaydalarının müəyyən olunmasını özündə ehtiva edəcək. Əsas məqsəd isə 2025-ci ilə qədər ölkəyə xarici investisiya axınını daha da artırmaqdır: «İstənilən ölkədə iqtisadi artım daim vəsait qoyuluşu tələb etdiyindən, bu sahəyə yatırılan investisiyanın həcminin artırılması üçün həyata keçirilən islahatlar genişləndirilməli, xüsusilə də özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes-investisiya mühiti, həmçinin investisiyaların qorunması sahəsində qanunvericilik daha da təkmilləşdirilməlidir. Xarici investorlar sərmayə qoymaq üçün tərəfdaşlıq zəminində ölkədə investisiyanın qorunması sisteminin mövcudluğuna xüsusi diqqət yetirirlər».

İqtisadçı Pərviz Heydərov qeyd etmişdir ki, dövlət başçısının imzaladığı investisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı tədbirlər haqqında sərəncam böyük əhəmiyyətə malikdir: «Həm yerli, həm də xarici investorlar ölkəmizə sərmayə qoymaqda maraqlıdırlar. Düzdür, daxili investisiyaların, birbaşa dövlət investisiyalarının da bu sahədə rolu danılmazdır, lakin müqayisədə keyfiyyət baxımından xarici investisiyaların əvəzi yoxdur. Son zamanlar neftin qiymətinin aşağı düşməsi fonunda xarici investorların şərtləri də ağırlaşıb. Bu nöqteyi-nəzərdən, yeni qanun layihəsinin hazırlanması öz aktuallığı ilə seçilir. Prezident sərəncamında sadalanan məsələlər qısa müddətdə həllini tapmalıdır. Xarici investisiyalarla bağlı uzunmüddətli sərmayə qoyuluşu şəraitində investorların iqtisadi mənafelərinin qorunması, Azərbaycanın qeyri-neft sektorunun inkişafı məqsədilə xarici vəsaitlərin axını üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi və ardıcıl xarakter daşıması son dərəcə vacib şərtlərdir».

Sərəncamda qeyd olunub ki, 2025-ci ilədək qarşıya qoyulan məqsədlərdən biri də xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitini təmin etməkdir. Odur ki, bu sahədə aparılacaq islahatlar iqtisadiyyatda özəl investisiyaların payının artmasına təkan verəcək.

**Fəxriyyə İKRAMQIZI**

# Güzəştli kreditlər sahibkarlığı stimullaşdırır

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən özəl sektorun uzunmüddətli və əlverişli şərtlərlə maliyyə resurslarına çıxışının təmin olunması məqsədilə, hər il olduğu kimi, ötən ildə də sahibkarlığın güzəştli kreditləşdirilməsi davam etdirilib.

Fondun icraçı direktoru Şirzad Abdullayevin sözlərinə görə, qurumun tarixində ilk dəfə olaraq ötən il dövlət büdcəsindən vəsait ayrılmadan investisiya layihələri maliyyələşdirilib, 1953 sahibkara geri qaytarılan vəsaitlər hesabına 146 milyon manat güzəştli kredit verilib: «Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 6600-ə yaxın yeni iş yerinin yaradılmasına imkan yaradır. Kreditlərin 65%-i respublikanın regionlarının, 35%-i isə Bakı şəhərinin qəsəbələrinin payına düşür. Güzəştli kreditlərin 67,6%-i aqrar sektorun, 32,4%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahələrinin inkişafına yönəldilib. 2017-ci ildə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilən 61 istehsal, emal və infrastruktur müəssisəsi fəaliyyətə başlayıb, 2018-ci ildə isə daha 40 layihənin başa çatdırılması nəzərdə tutulur».

Qeyd edilib ki, indiyədək 34.600 sahibkara 2,1 milyard manat güzəştli kredit verilib: «Sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin verilməsi 2018-ci ildə də davam etdiriləcək. Bu il geri qaytarılan vəsaitlər hesabına sahibkarlıq subyektlərinə aqroparkların, ətlik və südlük istiqamətli cins iribuynuzlu heyvandarlıq komplekslərinin, logistik mərkəzlərin, meyvə-tərəvəz emalı müəssisələrinin, intensiv bağçılıq və tingçilik təsərrüfatlarının, texniki bitkiçilik, idxaləvəzləyici qida və qeyri-qida məhsullarının istehsalı və emalı müəssisələrinin yaradılması, eləcə də kiçik sahibkarlığın inkişafı və digər istiqamətlər üzrə prioritet hesab edilən layihələrin maliyyələşdirilməsinə ilkin olaraq 170 milyon manat güzəştli kredit verilməsi nəzərdə tutulur».

**AYTƏN**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa,
**Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**,
www.taxes.gov.az və www.asxm.gov.az
internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Avropa İttifaqında ƏDV islahatı davam etdiriləcək

Avropa Komissiyası Avropa İttifaqında (Aİ) ƏDV-nin tutulması qaydalarının təkmilləşdirilməsini davam etdirərək ölkələrin bu verginin standart, azaldılmış və hətta sıfır dərəcələrini təlbiq etməkdə daha çox sərbəstlik qazanmasına çalışır. Aİ ölkələri 15 faizdən az olmayan standart dərəcədən əlavə, 5 faiz həcmində aşağı dərəcə və 0 faiz həcmində ən aşağı dərəcə müəyyənləşdirə bilərlər. Bu zaman ölkələrdə orta ƏDV dərəcəsi «dövlət gəlirlərinin qorunması» məqsədilə 12 faizdən aşağı olmamalıdır.

Bundan əlavə, hazırda qüvvədə olan güzəştlərin verilə biləcəyi mal və xidmətlərin siyahısı ləğv ediləcək, onun yerinə standart dərəcələrin tətbiq oluna biləcəyi malların siyahısı tutulacaq.

Digər tərəfdən, Avropa Komissiyası kiçik və orta müəssisələr (KOS) üçün qaydaları dəyişdirməyi də təklif edir. Təklifə əsasən, Aİnin hər yerində illik gəliri 2 milyon avrodan az olan KOS-lar üçün sadələşdirilmiş ƏDV prosedurundan istifadə edilə bilər, həmçinin birdən artıq Aİ-28 ölkəsində fəaliyyət göstərən şirkətlər üçün 100 min avro məbləğində ikinci həddə müəyyənləşdiriləbilər. Bununla yanaşı, ölkələr KOS-ların əlavə dəyər vergisinə aid müəyyən öhdəliklərdən azad olunması ilə bağlı müstəqil şəkildə qərar qəbul edə bilərlər.

## Elektron xidmətlər göstərən beynəlxalq şirkətlər uçota durublar

Belarus Respublikasında elektron xidmətlərə görə əlavə dəyər vergisi ödəmək üçün «Google», «Amazon» və «Netflix» kimi şirkətlər vergi uçotuna durmuşlar.

Vergilər və yığımlar naziri Sergey Nalivayko bildirmişdir ki, elektron xidmətlər göstərən xarici şirkətlərdən uçota durmaq barədə ərizələrin alınmasına bu ilin əvvəlindən başlanmışdır. Hazırda siyahıda olan «Google», «Amazon» və «Netflix» kimi şirkətlərin sırasına yaxın vaxtlarda «Uber»in də qoşulması istisna edilmir.

Nazirin sözlərinə görə, elektron xidmətlər göstərən xarici şirkətlərin vergiyə cəlb edilməsi ilə bağlı qanun 2016-cı ildən hazır olsa da, 2018-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. «Biz görürük ki, ciddi şirkətlər yeni qaydalara məsuliyyətlə yanaşırlar. Onların uçota durmaq üçün birinci rübün sonuna qədər vaxtları olsa da, bu işi vaxtından əvvəl yerinə yetirirlər», - Sergey Nalivayko bildirmişdir.

Xarici şirkətlərdən ilk vergi ödənişləri isə dövlət xəzinəsinə aprel ayında daxil olacaq.

## Vyetnamda şəbəkə satıcıları vergi ödəməyə məcbur olunacaq

Ölkənin Vergi Departamentindən verilən məlumata görə, müəssisələrin öz öhdəliklərini yerinə yetirməsinə şərait yaradan bu cür yığım ədalətli biznes mühitinin yaranmasına yardım edə bilər.

Keçən il Vyetnamın vergi orqanları, «Facebook» da daxil olmaqla, 14.500-dən artıq internet mağaza ilə əlaqə yaratmış, sosial şəbəkələr vasitəsilə fəaliyyət göstərən şirkətlərdən vergiləri ödəməyi tələb etmişdilər. Lakin vergi ödəyənlərin sayı gözlənilən səviyyəyə çatmamış, cəmi 4 minə yaxın olmuşdu. «Facebook»dakı hesab sahiblərinin əksəriyyəti gəlirlərini bəyan etmək və ya vergi ödəmək istəmir, onlayn ticarətə isə mövsümi və ya yarımçıq iş kimi yanaşırlar. Hətta iri satış qurumları belə, vergidən yayınmağın əyri yollarını axtarırlar.

Vergi orqanlarının məlumatına əsasən, hesab sahibləri vergidən yayınmaq üçün müxtəlif üsullara əl atırlar. Ən geniş yayılmış fəndlər sırasında nağd hesablaşmalarla aparılan əməliyyatlara geniş yer verilməsi, bir neçə satış səhifəsinin yaradılması, ünvanın dəyişdirilməsi, eləcə də dəqiq satış elanından və ya satış qiymətlərinin göstərilməsindən imtina olunması üstünlük təşkil edir.

## Oyun biznesindən tutulan verginin dərəcəsi ikiqat artırılıb

Rusiya Federasiyasının Vergi Məcəlləsinə edilmiş son dəyişikliyə əsasən, yanvarın 1-dən oyun biznesindən tutulan vergilərin minimal və maksimal dərəcələri ikiqat artırılmışdır.

Oyun biznesinə görə vergi hər bir oyun masasından, oyun avtomatından, totalizatorun və bukmeyker kontorunun prosessinq mərkəzindən, eləcə də bukmeyker kontorunun və totalizatorun stavka qəbuletmə məntəqəsindən hər ay tutulur. Bu ildən başlayaraq bir oyun masası üçün aylıq vergi 50 min rubldan (1493 manat) 250 min rubla (7500 manat), hər oyun avtomatı üçün aylıq vergi isə 3 min rubldan (90 manat) 15 min rubla (450 manat) qədər müəyyənləşdirilmişdir. Bukmeyker kontorunun prosessinq mərkəzinin ödəyəcəyi aylıq verginin məbləği də oyun masası üçün müəyyənləşdirilmiş verginin məbləği ilə eynidir - 50 min rubldan 250 min rubla qədər. Stavkaları qəbul edən hər bir totalizator və ya bukmeyker kontoru ayda 10 min rubldan (298,7 manat) 14 min rubla qədər (418,2 manat) vergi ödəməlidir.

Bundan əlavə, oyun biznesi ilə məşğul olan obyektlərin siyahısı da genişləndirilmişdir. İndi interaktiv stavkaları qəbul edən bukmeyker kontorlarının və totalizatorların prosessinq mərkəzlərinin sahibləri də vergi ödəməlidirlər: onlar üçün vergi dərəcəsi 2,5 milyon rubldan (74.670 manat) 3 milyon rubl (89.605manat) civarındadır.

## Latviya və Estoniya offşor zonaların siyahısına salınıb



İndi dünyada gedən biznes proseslərinin diqqət mərkəzində olan aktual mövzulardan biri də offşor zonalarla bağlıdır: şirkətlərə böyük vergi güzəştləri verən offşorlar dünyanın «vergi cənnətləri» hesab edilir. Təbii ki, vergi qaçaqçılığının qarşısının alınması üçün offşorlarla bağlı dünya miqyasında ciddi tədbirlər görülür, offşor zonalarda qeydiyyata alınmış şirkətlərə nəzarət durmadan artırılır.

Ancaq bu prosesdə bəzən təəccüb doğuran hadisələrə də rast gəlmək olur. Məsələn, Ukrayna hökumətinin keçən ilin sonunda qəbul etdiyi qərara əsasən, offşor zonaların siyahısına 22 ölkənin adı salınmışdır. Burada təəccüb doğuran fakt isə budur ki, hökumət tərəfindən imzalanmış həmin rəsmi sənədə əsasən, Estoniya və Latviya da rəsmi şəkildə offşor zonalar hesab edilir. Ekspertlər isə bu qərarın mənfi cəhətini onda görürlər ki, mallar, xidmətlər və işlər bundan sonra dövriyyədən 30 faizlik vergiyə cəlb olunacaq və belə bir şəraitdə müəssisələr, banklar və digər maliyyə qurumları ilə münasibətlər sərtləşdiriləcək. İndiki halda offşor anlayışı özlüyündə fəaliyyətin müxtəlif sahələri üzərində nəzarətin ciddiləşdirilməsini nəzərdə tutur.

Estoniyanın Ukraynadakı səfiri Gert Antsunun sözlərinə əsasən, bu cür halın yaranmasının başlıca səbəbi mənfəət vergisinin dərəcəsi ilə bağlıdır. Ukraynada bu vergi müəssisələr üçün sıfır dərəcə ilə qəbul edilmişdir. Estoniyada isə mənfəət vergiyə cəlb edilir. Hətta dividentlər çıxıldıqdan sonra da vergini ödəməkdən yayınmaq mümkün deyil. Ona görə də Estoniyanın bu siyahıya salınmasında yanlışlıq var. Səfirin sözlərinə görə, bu qərar öz məhsullarını Ukraynaya ixrac edən müəssisə və təşkilatların hamısına aiddir. Keçən il bu cür şirkətlərin siyahısına 402 müəssisə daxil edilmişdi.

Estoniyalı sahibkarlar Toomas Xirve və Andres Lumi hökumətin qərarına münasibət bildirərək qeyd etmişlər ki, belə bir addımın atılmasına Estoniyada elektron rezidentlik haqqında qanunun qəbul edilməsi səbəb ola bilər. Hazırda Ukraynadan olan 1642 elektron rezident Estoniyada qeydiyyata alınmışdır. Bu isə rezidentlərin ümumi sayının 5,8 faizi qədərdir. Bu vəziyyət Ukrayna şirkətlərinə Avropa İttifaqının bazarlarına daxil olmaq üçün şərait yaradır. Bundan əlavə, onlar öz pullarını Estoniyaya göndərə bilirlər, çünki həmin vəsaitlər Ukraynada vergiyə cəlb edilir. Andres Lumi onu da qeyd etmişdir ki, belə bir vəziyyətin yaranması onu dəməyə əsas verir ki, Ukrayna vətəndaşları pullarını saxlamaq üçün öz ölkələri ilə müqayisədə Estoniyaya daha çox etibar edirlər.

Estoniyalı iş adamları səfirlə də görüşmüşlər. Onlara bildirilmişdir ki, Estoniya tərəfi hazırda problemin həlli üçün əlindən gələni edir. Həmin siyahıya Latviyanın da adı salındığına görə, problemin aradan qaldırılması istiqamətində işlər bu iki ölkə arasında koordinasiyalı şəkildə aparılmalıdır.

## Onlayn rejimdə alınan mallara ƏDV tətbiq ediləcək

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vergi idarəsindən bildirilmişdir ki, yerli internet mağazalardan həyata keçirilmiş bütün internet alğı-satqı əməliyyatları əlavə dəyər vergisinə cəlb ediləcək. Onlayn rejimdə alınmış mallardan sifariş BƏƏ-nin ərazisində qəbul edildiyi hallarda, ənənəvi mağazalarda olduğu kimi, ƏDV tutulmalıdır.

Hakimiyyət orqanları tərəfindən yayılan məlumatda bildirilmişdir ki, əlavə dəyər vergisi haqqında 2017-ci ildə təsdiqlənmiş federal qanuna və normativ aktlara əsasən, onlayn alınan bütün mallardan ƏDV tutulmalıdır. Bu norma internet satıcılara da şamil edilir.

## Şakira vergi qaçaqlığında ittiham olunur

Kolumbiyalı müğənni, rəqqasə və model Şakira İspaniyanın vergi xidmətinin «qara siyahı»sına düşmüşdür. «La Razon» nəşrinin yaydığı məlumata əsasən, vergi orqanının əməkdaşları onun barəsində məhkəmə iddiası qaldırmağı planlaşdırır. Vergi xidmətinin açıqlamasında qeyd edilmişdir ki, «Barselona» futbol klubunun müdafiəçisi Jerar Pike ilə birgə yaşadığı üç il ərzində Şakira İspaniyanın rezidenti olmamışdır və öz gəlirlərindən vergi ödəməmişdir.

Artıq prokurorluğa iddia ərizəsi daxil olmuşdur. İspaniyanın qüvvədə olan qanunvericiliyinə əsasən, 40 yaşlı gözəl müğənni yalnız Krallıq ərazisində deyil, onun hüdudlarından kənarda qazandığı gəlirlərinə görə vergi ödəməli idi. Vergi fırıldağı ilə bağlı əldə olunan məlumatlara əsasən, Şakiranı böyük məbləğdə cərimə və iki ilə qədər həbs cəzası gözləyir.

Qeyd edək ki, bundan əvvəl Portuqaliya vətəndaşı olan və hazırda İspaniyanın «Real» Madrid klubunda oynayan futbol ulduzu Kriştianu Ronaldu da buna oxşar problemlə qarşılaşmış, lakin sonradan məsələ hüquqi həllini tapmışdı.

Şakiranı yaxından tanıyan insanların fikrincə, o, təmiz adamdır və bilərəkdən hər hansı fırıldağ əmələ yol verməsi mümkün deyil. Bütün bunlara baxmayaraq, son rəyi ədalət məhkəməsi deyəcək.



krossvord

**Yuxarıdan aşağı:** 1.Məşhur Azərbaycan aktrisası. «Qaynana» filminin baş qəhrəmanı Cənnət xala obrazının ifaçısı; 2.Sultan Süleyman Qanuninin böyük oğlunun adı; 3.İngiltərə kraliçasına bağışlanılmış Qarabağ atının adı; 4.Hollivud ulduzu, «Terminator» filminin baş qəhrəmanı, ABŞ-ın Kaliforniya ştatının keçmiş qubernatorunun adı; 5.Rusiyada çay; 6.İttiham olunan şəxsin cinayət əməlində iştirakının olmadığını sübut edən anlayış, hüquqi termin; 7.Türkiyənin məşhur kino aktrisası. «Arım, balım, pətəyim» filminin rejissorunun, ssenaristinin və Zeynəb obrazının ifaçısının adı; 13.Oyuncaq çeşidi, bir-biri ilə birləşə bilən müxtəlif rəng və formada uşaq konstruktor brendi; 15.Fransa bəstəkarı, impressionizm cərəyanının nümayəndəsi; 16.Tezalışan və qaranlıqda işıq verən kimyəvi element; 17.Osmanlı sultanı İldırım Bəyazid ilə Əmir Teymur arasında baş vermiş döyüş; 18.Ruhlar aləmi ilə canlı insanlar arasında əlaqə yaradan şəxs; 20.Hakim dindən ayrılmış icma, təriqət; 21.Yumru dərman dənələri.

**Soldan sağa:** 1.Qədim sikkə və medalları toplayıb tədqiq edən elm; 8.Rusiyada çay və şəhər; 9.Braziliyada bələdiyyə; 10.Alman maşınqayırma şirkəti. Məişət avadanlığı və istehlak mallarının istehsalçısı; 11.Məşhur rejissor Eldar Ryazanovun «İki nəfərlik vağzal» filmində Vera Nefyodova rolunu oynamış sovet-rus teatr və kino aktrisası, estrada müğənnisi, SSRİ xalq artisti; 12.Səthində müxtəlif bəzəkləri olan nazik biskvit növü; 14.Nizam, səliqə; 19.Kimyəvi element; 21.Fransız heykəltəraşı; 22.Qrafik məlumatın qəbulu və göndərilməsi üçün elektron rabitə cihazı; 23.Opera müğənnisi (lirik tenor), aktyor, rejissor, pedaqoq, teatr xadiminin soyadı; 24.Çay mənsəbində çay vadisinin dəniz suları ilə basılmasından əmələ gələn, adətən, konusvari formaya malik körfəz; 25.Mühərriksiz uçan aparatlara əsaslanan idman növü.



*«Arım, balım, pətəyim» filmindən epizod*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kakadu; 2.Nereida; 3.Lokum; 4.Müslüm *(Maqomayev)*; 5.Rostbif; 6.Turac; 7.Qlazqo; 13.Orta; 15.Nefelin; 16.Abuzər *(Xələfov)*; 17.İntern; 18.Batist; 20.Ramil *(Şeydayev)*; 21.Kenti. **Soldan sağa:** 1.Konqlomerat; 8.Karakas; 9.Sarma; 10.Deizm; 11.Üçbucaq; 12.Qabon; 14.Afina; 19.Bariton; 21.Kafka *(Frans)*; 22.Zima; 23.Bernulli *(Yakob)*; 24.Ril; 25.Pansionat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Məşqçilərə beynəlxalq dərəcəli sertifikatlar təqdim olunub

**Beynəlxalq Olimpiya Komitəsinin və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi, Azərbaycan Velosiped İdmanı Federasiyasının təşkilatçılığı ilə 1-ci dərəcəli texniki kurslarda iştirak etmiş və imtahandan uğurla keçmiş məşqçilərə müvafiq sertifikatlar təqdim edilib.**



Azərbaycan Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə həyata keçirilən bir həftəlik kurslar Respublika Velotrekində təşkil olunub. Layihənin məqsədi velosiped idmanı üzrə beynəlxalq dərəcəli məşqçilərin yetişdirilməsi, onların nəzəri və praktiki biliklərinin genişləndirilməsidir. Məşğələlər Beynəlxalq Velosipedçilər İttifaqının beynəlxalq dərəcəli mühazirəçisi Jan Jak Anri tərəfindən keçirilib. Layihədə ümumilikdə 20 məşqçi iştirak edib və kursların yekununda iştirakçılara beynəlxalq dərəcəli sertifikatlar təqdim olunub. Onların arasında «Olimpiya Hərəkatı-2017» layihəsinin məşqçiləri də var.

# Millətlər Liqasının püşkü atıldı

Yanvarın 24-də İsveçrənin Lozanna şəhərində UEFA-nın yeni təsis etdiyi Millətlər Liqasının püşkatma mərasimi keçirilib. «D» liqasında mübarizə aparacaq Azərbaycan milli komandası püşkün nəticələrinə görə III qrupda yer alıb. Yığma komandamızın rəqibləri Farer Adaları, Malta və Kosovo milliləridir.




Bu liqada çıxış edəcək digər komandalardan Gürcüstan, Latviya, Qazaxıstan, Andorra birinci, Belarus, Lüksemburq, Moldova və San-Marino yığmaları ikinci qrupda yer alıblar. Makedoniya, Ermənistan, Lixtenşteyn və Cəbəllütariq seçmələri isə dördüncü qrupda mübarizə aparacaqlar. UEFA Millətlər Liqasında çıxış edəcək 55 milli komanda dörd divizionda yarışacaq. «A» və «B» liqalarının hər birinə 12, «C» liqasına 15, «D» liqasına isə 16 komanda daxil edilib.

Azərbaycan yığması qrupda ilk oyununu bu il sentyabrın 7-də Bakıda Kosovo seçməsinə qarşı keçirəcək. Baş məşqçi Qurban Qurbanovun yetirmələri sentyabrın 10-da səfərdə Malta, oktyabrın 11-də isə səfərdə Farer Adaları ilə qarşılaşacaqlar.

Millimiz oktyabrın 14-də və noyabrın 17-də Bakıda əvvəlcə Maltanı, sonra Farer Adalarını qəbul edəcək. Yığma komandamız qrupda sonuncu matçını noyabrın 20-də səfərdə Kosovo komandasına qarşı oynayacaq.

# Maqnus Karlsen ən güclü olduğunu bir daha sübut etdi

Niderlandın Veyk-an-Zee şəhərində 80-ci Tata Steel Chees festivalı çərçivəsində keçirilən şahmat super turniri norveçli dünya çempionu Maqnus Karlsenin qələbəsi ilə başa çatıb. Yarışda ən güclü qrossmeysterlər, o cümlədən azərbaycanlı Şəhriyar Məmmədyarov da iştirak edib. Turnir 1938-ci ildən Niderlandda keçirilir.




Sonuncu - 13-cü turda rusiyalı Vladimir Kramnik hindistanlı Başkaran Adhibanı, amerikalı Uesli So isə çinli Hou Yifanı məğlub edib. Qalan partiyalar heç-heçə nəticələnib. Rusiyalı Sergey Karyakin və Maqnus Karlsen, Maksim Matlakov və ingilis Haveyn Cons, Pyotr Svidler və amerikalı Fabiano Karuana, azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov və hindistanlı Vişvanatan Anand, çinli Vey İ və hollandiyalı Aniş Giri xalları yarı bölüblər.

Turnirin son nəticələrinə görə, Maqnus Karlsen və Aniş Giri 13 mümkün xaldan 9 xal toplayıblar. Birinci yer uğrunda taybrekdə norveçli 1,5:0,5 hesabı ilə qalib gəlib və altıncı dəfə Veyk-an-Zee super turnirinin qalibi olub. Xatırladaq ki, o, 2008, 2010, 2013, 2015 və 2016-cı illərdə də birinci yeri tutub. Vladimir Kramnik və Şəhriyar Məmmədyarov birinci və ikinci mükafatçılardan yarım xal geri qalıblar. Əlavə göstəricilərə görə, 14-cü dünya çempionu üçüncü, Azərbaycan təmsilçisi isə dördüncü yeri tutublar.

Onu da vurğulamaq yerinə düşər ki, turnirin yekunlarına görə azərbaycanlı qrossmeyster Vüqar Həşimovun xatirəsinə təsis olunmuş «Fair Play» mükafatları da təqdim edilib. Vüqar Həşimov adına Şahmat Fondu tərəfindən təsis edilmiş mükafatların sahiblərini mərhum qrossmeysterin qardaşı Sərxan Həşimov, turnirin direktoru Yerun van den Berq və yarışın baş hakimi Pavel Votrubanın daxil olduğu jüri müəyyən edib. Baş turnirin iştirakçısı, rusiyalı Vladimir Kramnik və ikinci dərəcəli yarışın iştirakçısı, hollandiyalı Ervin Lyami həmin mükafata layiq görülüblər.

# İdman jurnalistləri mükafatlandırıldı

«Sportsman» jurnalının Gənclər və İdman Nazirliyinin dəstəyi ilə təsis etdiyi «Zəfər-2017» beynəlxalq idman mükafatının təqdimetmə mərasimi keçirilib.

Mükafatın nominantları sırasında Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında yeni yaradılan idman jurnalistikası magistr proqramının təsisçiləri də yer alıblar. Proqramın rəhbəri Dan Mason və proqram meneceri Ellada Mustafayeva «Azərbaycan idman jurnalistikasının inkişafında xidmətlərinə görə» nominasiyası üzrə «Zəfər 2017» beynəlxalq idman mükafatına layiq görülüblər.

«Zəfər» yüksək idman nailiyyətləri mükafatı Gənclər və İdman Nazirliyinin dəstəyi ilə «Sportsman» jurnalı tərəfindən 2007-ci ildə təsis olunub. 2015-ci ildən isə mükafat beynəlxalq idman mükafatı statusunu qazanıb.

## mozaika

### cəmiyyət

# Kiçik noutbuklara qayıdış



Bu il «Apple» şirkəti kiçik noutbukların istehsalına qayıtmaq niyyətindədir. «Apple»ın yeni tətbiqi haqqında «General Interface Solutions» şirkəti məlumat verib. Bu şirkət 2017-ci ilin sonundan «MacBook» üçün aksessuarlar istehsal edir. Hazırda şirkət yeni, 12 düymlük, sərfəli «MacBook» üçün maye kristal ekranların sifarişini alıb. Yeni «MacBook» 2018-ci ilin ikinci yarısında satışa çıxarılacaq. «MacBook Air»in hazırkı dəyərinin 1200 ABŞ dolları olduğunu nəzərə alsaq, yeni noutbukun dəyəri bu məbləği ötməyəcək.

«Apple» yeni məhsulun istehsalından sonra «MacBook Air»in istehsalını dayandıra bilər. Bununla yanaşı, yeni «MacBook», həmçinin «Apple»ın son dərəcə incə korpusunun tozla dolaraq sınmasına səbəb olan, yeni mexanizmə malik klaviaturası ilə bağlı yaranmış problemləri həll etməyə kömək edə bilər.

### texnologiya

# Smartfonlar süni intellektlə işləyəcək

ABŞ analitikləri gələcəyin smartfonları ilə bağlı yeni hesabat hazırlayıblar. İlkin proqnozlara əsasən, 2023-cü ilədək bütün smartfonlar süni intellektə malik olacaq. 2023-cü ildə, qiymətindən asılı olmayaraq, bütün smartfonlar «ağıllı» çiplərlə təchiz ediləcək. Smartfonlardan ev, ofis və otel otaqlarına, həmçinin avtomobil, avtobus və bank xidmətlərinə çıxışın autentifikasiyası üçün istifadə olunacaq. Smartfonlara quraşdırılmış GPS-qəbuledicilər daha dəqiq işləyəcək. Orta səviyyəli smartfonun 128 giqabayt (Gb) və ya daha çox yaddaş tutumu olacaq. Əməli yaddaşın həcmi isə 2-16 Gb təşkil edəcək.

# Qışda soyuqdan, yayda istidən...

ABŞ-ın Stenford Universitetinin laboratoriyasının alimləri tərəfindən hazırlanmış yeni material insanı soyuq havada isidə, isti havada isə sərinləşdirə bilir. İki qatdan ibarət olan unikal parça geyimlərin hazırlanması ilə yanaşı, yüksək texnologiyalar sahəsində də istifadə edilə bilər.

Materialın hazırlanmasında xüsusi komponentlərdən istifadə edilib. Belə ki, daxili qatı nanoməsaməli polietilendən hazırlanan material temperatur artdıqda insan bədəninin istiliyini xaric edir. Materialın xarici qatı isə şüalanma əmsalı aşağı olan mis tozlanmasından hazırlanıb. Bu texnologiya sayəsində parça soyuq hava şəraitində istiliyi udaraq özündə mühafizə edir, bununla yanaşı, hava və buxar buraxaraq dəriyə sərinlik verir.

Alimlər bu qeyri-adi materialı təcrübədən keçirmək niyyətindədirlər. Güman olunur ki, materialdan yaz-payız geyimlərinin və dəyişkən temperaturda işləyən texnika üçün qoruyucu örtüklərin hazırlanmasında istifadə ediləcək.

### maraqlı

# «Ölümsüzlük iksiri» öldürüb

Alimlər aydınlaşdırıblar ki, Çinin ilk imperatoru Sin Şixuandi əbədi yaşamaq istəyirmiş və öz tələbələrinə ölümsüzlük iksiri tapmağı əmr edibmiş. «Sinxua» agentliyinin təzə tapılmış sənədlərə əsasən yaydığı məlumatda bildirilir ki, Xunan əyalətində aparılan qazıntılar zamanı əbədi cavanlıq üçün «dərman» ixtirası ilə əlaqədar bir sıra qədim sənədlər və 48 əşya aşkar edilib. Həmin tapıntılar «ölümsüzlük içkisi» yaradılması haqqında imperatorun fərmanının hətta ucqar əyalət və kəndlərə də gedib çıxdığını göstərir.

«Bu fərmanın verilməsi və insanların həqiqətən də onu icra etməyə cəhd göstərməsi faktı göstərir ki, Sin Şixuandi nəqliyyat və rabitə vasitələrinin olmadığı bir vaxtda belə, imperatorun istəyinin ölkənin hər yerinə çatdırılmasına imkan verən qanunverici və icraedici hakimiyyət yaradıbmış»,- deyə arxeoloji qazıntının rəhbəri bildirib.

Sin Şixuandi eramızdan əvvəl 259-cu ildə doğulub və 210-cu ilədək ömür sürüb. O, Çinin bir-birinə düşmən olan altı əyalətini vahid dövlətdə birləşdirərək, özünü imperator elan edib.

Əvvəllər də arxeoloqlar bu böyük fatehin ölməzlik arzusunu təsdiqləyən sübutlar tapmışdılar. Güman olunur ki, imperator öz ömrünü uzatmaq üçün kinovardan (və ya civə sulfidi) istifadə edib. Ehtimal ki, məhz elə buna görə də o, 49 yaşında həyatını itirib. Sin Şixuandi içərisində terrakot qoşun (keramikadan hazırlanmış 8100 döyüşçü fiquru) aşkar edilmiş sərdabəsi ilə məşhurdur. İmperatorun özünün məzarı isə hələ açılmayıb.

### mədəniyyət

# «Şeyx Səfi» Los Ancelesdə



Azərbaycanın ən məşhur xalçalarından biri - «Ərdəbil» və ya «Şeyx Səfi» adı ilə tanınmış xalça hazırda Los-Anceles dairəsindəki İncəsənət Muzeyində nümayiş etdirilir. Ən qədim, ən iri (35 milyon ilmədən ibarət) və tarixi əhəmiyyətli xalçalardan biri sayılan «Şeyx Səfi» başqa bir məşhur Azərbaycan xalçası ilə bərabər uzun müddət Londondakı Viktoriya və Albert Muzeyində saxlanılıb.

«Şeyx Səfi» xalçası 1539-cu ildə Təbrizdə toxunub və XIX əsrə qədər Ərdəbil şəhərindəki bir məbəddə saxlanılıb. XIX əsrdə «Şeyx Səfi» və digər bir Ərdəbil xalçası Londona gətirilib. «Şeyx Səfi» gizli şəkildə amerikalı sənayeçi C.Poul Gettiyə satılıb. 1953-cü ildə Getti həmin xalçanı Los-Anceles dairəsindəki İncəsənət Muzeyinə hədiyyə edib.

Xalçanın ölçüləri çox böyük (uzunluğu 23, eni 13 fut) olduğuna görə, adətən onu 6-10 ildə bir dəfə Los-Anceles dairəsindəki İncəsənət Muzeyində nümayiş etdirirlər. 1965-ci ildəki «debüt»ündən ötən müddətdə bu xalça cəmi 6 dəfə nümayiş etdirilib. Builki sərgi fevralın 11-dək davam edəcək.

### faydalı

# Narıncı meyvələrin mövsümü

Günəş işığının olmadığı və ya az olduğu günlərdə günəş rənginə oxşar meyvə-tərəvəzlərlə qidalanmaq orqanizmin normal fəaliyyətinə çox yaxşı təsir göstərir. Narıncı meyvə-tərəvəzlər - balqabaq, şirin kartof, portağal, ərik, şaftalı, qreypfrut, bibər, yemiş, limon, kök, xurma, naringinin tərkibində olan böyük miqdarda beta-karotin dərini hamarlaşdırır, ultra-bənövşəyi şüalardan qoruyur, mədə-bağırsağın işini normallaşdırır. Onlar əhval-ruhiyyəni yüksəldir, orqanizmə enerji verir və susuzluğu yatırır. Həkim və dietoloqlar narıncı rəngli ərzaqları mütəmadi olaraq qida rasionuna daxil etməyi məsləhət görürlər, çünki onlar ürək-damar və xərçəng xəstəliyi riskini xeyli dərəcədə azaldır.



★ **Yerkökü** orqanizmin ağ ciyər və ürək xəstəliklərinə qarşı davamlılığına, təzə sıxılmış kök şirəsi isə bağırsağın funksiyasının bərpa olunmasına kömək edir. Onun sayəsində anemiya və halsızlıq zamanı orqanizm çox yaxşı bərpa olur, damarlar xolesterindən təmizlənir.

★ **Şirin kartof**un tərkibində mədə və öd kisəsinin işini stimullaşdıran maddələr var, diareya, iştahasızlıq və ya orqanizmin ümumi zəifliyi zamanı çox böyük fayda verir. Həddindən artıq tərləyənlərin ondan istifadə etməsi çox xeyirlidir. Şirin kartofun kökü artrit və revmatizmin müalicə və profilaktikası zamanı istifadə olunur.

★ **Balqabaq**dan hazırlanan xörəklər bir çox xəstəliklərin müalicəsi və profilaktikası zamanı məsləhət görülür. Balqabaq lətində çoxlu dəmir, fosfor və mis var. Məhz buna görə ateroskleroz və qanazlığı zamanı ondan istifadə etmək yaxşı profilaktika hesab edilir.

★ **Portağal** C vitamini ilə zəngindir və antioksidant xüsusiyyətə malikdir. O, pektinlə zəngindir, pektin isə bağırsağın işini yaxşılaşdırır, artıq xolesterini orqanizmdən xaric edir, uzun zaman toxluq hissini saxlayır.

★ **Limon**un da tərkibi həmin vitaminlə zəngindir və onun sayəsində qanda xolesterinin səviyyəsini azaldır, maddələr mübadiləsini sürətləndirir.

★ **Qreypfrut** şirəsi yeməkdən əvvəl qəbul ediləndə çəki itkisinə səbəb olur.

★ **Naringi** həzmi normallaşdırır, piy yığılmasının qarşısını alır.

### Müdriklər deyib ki...



*«Əgər dünyanı gözəl bir məkana çevirmək istəyirsənsə, aynaya bax və dəyişməyə özündən başla».*

*Maykl Cekson (1958-2009)*